QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim
üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 213 (5444) 22 **noyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycanın gələcək inkişafı üçün neft sənayesi həmişə həlledici rol oynayacaq

**Prezident İlham Əliyev:**
**"Bu gün "Əsrin kontraktı"nın nəticələri, sadəcə olaraq, Neft Fonduna gələn gəlirlərlə ölçülmür. Bunun çox geniş və çox böyük təsiri olub və bu gün də var"**



Yeni Azərbaycan Partiyası xalqın partiyasıdır



8

Zirə Mədəniyyət Mərkəzində "Ekoloji problemlər və onların həlli yolları tələbələrin gözü ilə" mövzusunda sərgi açılıb



3

Yeni Azərbaycan Partiyasının rəhbərliyi və üzvləri ümummilli lider Heydər Əliyevin xatirəsini yad ediblər



4

Siyavuş Novruzov: "Əli Kərimlinin ipi erməni lobbisinin əlindədir"



6

Bəhruz Quliyev: "Yeni Azərbaycan Partiyasını xalqa Ulu Öndər təqdim edib"



6

Milli Məclisin növbəti iclası keçirilib



5

4

Azərbaycanın müdafiə naziri: Ermənistan terrorizmi dəstəkləyən ölkədir



6

"Azərbaycanda xarici borclanma ilə bağlı strategiya hazırlanır"



16

"Çalışacağıq ki, meydanda səhvə yol verməyək"



# Azərbaycanın gələcək inkişafı üçün neft sənayesi həmişə həlledici rol oynayacaq




***Azərbaycanda 2 milyard ton neft hasil olunur. Bunun 700 milyon tonu müstəqillik dövrünün payına düşür. Neft amili “Əsrin müqaviləsi”nin imzalanmasından başlayaraq Azərbaycanın iqtisadi inkişafında olduqca əhəmiyyətli rol oynayıb və bu, indi də davam edir. Bununla Dövlət Neft Fondunda toplanan neft gəlirləri Azərbaycanda böyük infrastruktur, sosial layihələrin reallaşdırılmasına, qeyri-neft sektorunun inkişafına imkan verməklə ölkə iqtisadiyyatının genişləndirilməsinə xidmət edib.***

Lakin ölkəmizdə neft hasilatı təkcə neft gəlirləri ilə məhdudlaşmır və bu neftlə bərabər təbii qaz sənayesinin formalaşmasına, bu sahədə geniş tətbiq edilmə imkanına malik təcrübənin əldə olunmasına gətirib çıxarıb. Nəticə etibarilə SOCAR-ın timsalında Azərbaycanın böyük imkan və təcrübəyə malik milli şirkətinin, geniş neft-qaz infrastrukturunun olması məhz neft amilinə əsaslanır. Bütün bunların əsası 23 il bundan əvvəl imzalanan “Əsrin müqaviləsi”ndən başlanır. Buna qədər isə neft sənayesi Sovet dövründən qalmış və istismar müddətini bitirən texnika, eyni zamanda, müasir dövrün tələblərinə cavab verməyən texnologiya ilə səciyyəvi idi. Lakin 1994-cü il Azərbaycanın neft sənayesində dönüş oldu və ilk növbədə, gənc müstəqil dövlətin xarici tərəfdaşlarla etibarlı əməkdaşlıq nümunəsini yaratdı. Nəticədə, Azərbaycana böyük maraq yaranmaqla bərabər, ölkəmizə sərmayə qoyuluşu da artmağa başladı. Həmin vaxtdan etibarən Azərbaycanın neft hasilatı və nəqli infrastrukturunun əsası qoyuldu. Nəticədə, ölkəmizin neft sənayesindəki canlanma təbii qaz hasilatına da maraq yaratmış oldu. Hərçənd ki, bu sahənin daha az gəlirli olmasından irəli gələrək qaz hasilatı o vaxtlar xarici investorları elə də cəlb etmirdi. Həmin dövrdə enerji təhlükəsizliyi məsələsi də indiki qədər aktual deyildi. Bununla belə, 1996-cı ildə imzalanmış “Şahdəniz” müqaviləsi hazırda Azərbaycanın və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində müstəsna rol oynayır.

Bu gün Azərbaycan dünyada neft-qaz hasil və ixrac edən ölkə kimi böyük nüfuza malikdir və bunun təməlində Ulu Öndər Heydər Əliyevin enerji strategiyası dayanır. Hazırda Azərbaycanın təbii sərvətlərinin nəqlində 7 neft və təbii qaz kəməri iştirak edir ki, “Cənub Qaz Dəhlizi” sayəsində bu rəqəm 8-ə çatacaq. Eyni zamanda, ölkəmiz dünyanın ən böyük neft-qaz terminalı - Səngəçal terminalına malikdir. Prezident İlham Əliyevin sözlərinə görə, dünyanın ən böyük neft-qaz terminalı - Səngəçal terminalı da bizim böyük sərvətimizdir.

Bu gün Azərbaycan enerji təhlükəsizliyi məsələlərini tam şəkildə təmin edib. Vaxtilə ölkəmiz elektrik enerjisi və təbii qaz idxal edirdisə, hazırda neftlə bərabər bu məhsulların da ixracatçısıdır. Eyni zamanda, Azərbaycan investisiya qoyulan ölkə olmaqla yanaşı, həm də investordur. Bununla belə, neft amili uğurun mənbəyi yox, bu yolda bir vasitədir. Əsas olan isə bu vasitədən düzgün istifadə edilməsidir. Söhbət ondan gedir ki, dünyada zəngin neft yataqlarına malik bir çox ölkələr var ki, orada daim qeyri-sabitlik hökm sürür və əhalisi yoxsulluq şəraitində yaşayır. Bir sözlə, neft bütün mənalarda o ölkələrə fəlakət gətirir. Lakin bu gün ölkəmizdən danışdıqda, böyük fəxr hissi ilə qeyd edə bilərik ki, Azərbaycan “qara qızıl”ı insan kapitalına çevirə bilib. Bunun əsasında isə neft gəlirlərindən olduqca səmərəli şəkildə istifadə edilməsi dayanır. Hazırda Azərbaycanın müstəqil ölkə olmasında, iqtisadi potensialın formalaşmasında neft-qaz amilindən səmərəli istifadənin olduqca böyük əhəmiyyəti var və bu, hələ uzun müddət davam edəcək.

Burada, xüsusilə də, xarici sərmayədarlarla qurulan münasibətləri vurğulamaq lazımdır ki, Prezident İlham Əliyevin Azərbaycanda iki milyardıncı ton neft hasil olunması münasibətilə təntənəli mərasimdəki nitqində bu, daha aydın ifadə olunub: “Azərbaycanın timsalında, eyni zamanda, göstərilir ki, dövlət və xarici sərmayədarlar birlikdə necə iş qurmalıdırlar? Bu iş hansı prinsiplər əsasında qurulmalıdır? Burada da Azərbaycan bir nümunədir. Çünki biz tərəfdaşlarımızla, xüsusilə, əsas strateji investor olan BP şirkəti ilə çox sağlam zəmində, qarşılıqlı dəstək, qarşılıqlı inam, qarşılıqlı maraqlar əsasında əməkdaşlıq qurmuşuq. Həm investorlar, Azərbaycana milyard dollarlarla vəsait qoyan konsorsiumlar, həm də Azərbaycan dövləti böyük gəlir əldə edir. Burada hər iki tərəf fayda götürür və uğurlu əməkdaşlığın təməlində məhz bu, dayanır.”

Dövlətimizin başçısı, eyni zamanda, neft amilinin ölkəmiz üçün əhəmiyyətinə də aydınlıq gətirib: “Bir sözlə, bu gün “Əsrin kontraktı”nın nəticələri, sadəcə olaraq, Neft Fonduna gələn gəlirlərlə ölçülmür. Bunun çox geniş və çox böyük təsiri olub və bu gün də var.”

Bütün bunların fonunda isə Azərbaycan iqtisadi müstəqilliyini təmin edib. İqtisadi müstəqillik isə həm də siyasi müstəqilliyin əsasıdır. Noyabrın 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycanda iki milyard ton neft hasil olunması münasibətilə təntənəli mərasimdə çıxış edən Prezident İlham Əliyev deyib ki, bu gün Azərbaycan çiçəklənən bir dövlətdir. Hara baxsan göz oxşayır. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir: “Bizim bütün şəhərlərimiz abadlaşır. Əsrlər boyu insanları incidən bütün problemlər həll olunur. Qazlaşdırma, içməli su, elektrik, yollar - biz bunu nəyin hesabına edirik? Gəlirlər hesabına. Gəlirlərin əsas mənbəyi haradır? Azərbaycan neftçilərinin zəhməti hesabına çıxarılan neftdir. Azərbaycan vətəndaşları bunu həmişə bilməlidirlər. Biz bu gün haqlı olaraq, qeyri-neft sektorundan danışırıq və bu sahədə böyük işlər görülür. Dayanıqlı inkişaf üçün qeyri-neft sektoru inkişaf etməlidir. Çünki bu, ölkə iqtisadiyyatının şaxələndirilməsinə xidmət göstərir və bu sahədə çox böyük nailiyyətlər var. Mən dəfələrlə demişəm ki, prioritet istiqamət qeyri-neft sektorudur. Nə üçün? Çünki mən hesab edirəm ki, neft-qaz sektorunda əldə edilmiş bütün nəticələr proqram üzrə gedir və nəyi əldə etmək istəmişiksə, onu da əldə etmişik. Bir dənə də olsun icra edilməmiş və qrafikdən çıxmış layihə yoxdur. Ona görə, təbii ki, qeyri-neft sektoru prioritetdir. Ancaq ölkə iqtisadiyyatı, ölkəmizin gələcək inkişafı üçün neft sənayesi və neft-qaz sektoru həmişə həlledici rol oynayacaq”.

***“Səs” Analitik Qrupu***

## *Rəsmi xronika*

Azərbaycan Prezidenti İlham Əliyev Livan Prezidenti Mişel Auna təbrik məktubu göndərib. Təbrikdə deyilir: “Hörmətli cənab Prezident, Livan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Livan xalqına sülh və tərəqqi arzulayıram”.

***

Prezident İlham Əliyev “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 850-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncamı imzalayıb.

***

Prezident İlham Əliyev “Müqavilələr Hüququ haqqında Vyana Konvensiyası”na qoşulmaq barədə” Azərbaycan Respublikasının 2017-ci il 2 oktyabr tarixli 777-VQ nömrəli Qanununun tətbiqi haqqında Sərəncamı imzalayıb.

***

Prezident İlham Əliyev “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev “Elm haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və “Elm haqqında” Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 avqust tarixli 1009 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 12 sentyabr tarixli 579 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Neft Fondunun illik gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası Qaydaları”nda dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 218 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazi vahidlərinin, inzibati ərazi dairələrinin və sahə inzibati ərazi dairələrinin xəritələrinin hazırlanması Qaydası”nda dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

# Zirə Mədəniyyət Mərkəzində “Ekoloji problemlər və onların həlli yolları tələbələrin gözü ilə” mövzusunda sərgi açılıb

***Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə noyabrın 21-də Zirə Mədəniyyət Mərkəzində “Ekoloji problemlər və onların həlli yolları tələbələrin gözü ilə” mövzusunda sərgi açılıb. AZƏRTAC xəbər verir ki, sərginin açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, gənclər və idman naziri Azad Rəhimov, gənclər təşkilatlarının nümayəndələri iştirak ediblər.***



Yer Kürəsi insanları öz ağuşuna alır, onları bəsləyir, yaşamaları üçün özünün malik olduğu sərvətlərdən faydalanmasına imkan yaradır. Uzun əsrlərdən bəri bu sərvətlərdən faydalanan insanlar da onun qayğısına qalırlar. “Ekoloji problemlər və onların həlli yolları tələbələrin gözü ilə” mövzusunda sərginin təşkili də bu amala xidmət edir.

Prezident İlham Əliyevin 2015-ci il 26 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”na əsasən təşkil olunan sərginin məqsədi gənclərin ekoloji sahəyə maraqlarının artırılması, onların bu mövzuda maarifləndirilməsi, yaradıcılıq potensiallarının dəstəklənməsi və sosial təşəbbüskarlıqlarının stimullaşdırılmasıdır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və nazir Azad Rəhimov sərgidə 14-29 yaşlı gənclərin əl işlərinə baxdılar.

Məlumat verildi ki, burada sənətin müxtəlif növləri, o cümlədən monumental rəngkarlıq, dəzgah rəngkarlığı, ebru sənəti və digər üslublarda hazırlanan əsərlər nümayiş etdirilir.

Sonra tədbir iştirakçıları Zirə Mədəniyyət Mərkəzindəki “Art studiya” ilə tanış oldular. Mərkəz uşaqların rəssamlığın incəliklərini öyrənmələri üçün hər cür şərait və dərs vəsaiti ilə təchiz edilib. Burada, həmçinin gənc rəssamların ekoloji mövzuda çəkdikləri rəsmlər sərgilənir. Leyla Əliyeva gənc aktyorların iştirakı ilə ekoloji mövzuya həsr olunan pantomim tamaşaya da baxdı. Sonda fərqlənən tələbələr mükafatlandırıldı.










səs

www.sesqazeti.az

facebook Ses Media Holding

22 noyabr 2017-ci il

## Yeni Azərbaycan Partiyasının rəhbərliyi və üzvləri ümummilli lider Heydər Əliyevin xatirəsini yad ediblər



Yeni Azərbaycan Partiyasının yaradılmasının (YAP) 25 illiyi münasibətilə partiyanın rəhbərliyi və üzvləri noyabrın 21-də Fəxri xiyabana gələrək YAP-ın qurucusu, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar. AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

## Azərbaycan İstanbulda keçirilən Asiya Parlament Assambleyasının plenar sessiyasında təmsil olunur



İstanbulda Türkiyə Böyük Millət Məclisinin (TBMM) ev sahibliyi ilə Asiya Parlament Assambleyasının 10-cu plenar sessiyası işə başlayıb. AZƏRTAC xəbər verir ki, 31 ölkədən nümayəndə heyətinin iştirakı ilə keçirilən sessiyada Azərbaycanı Milli Məclisin deputatları Sevinc Fətəliyeva və İlham Məmmədov təmsil edilər. Noyabrın 21-də Asiya Parlament Assambleyasının İcraedici Şurasının iclası keçirilib. Əvvəlcə təşkilati məsələlərə baxılıb. Təşkilata sədrlik Kambocadan 2 il müddətinə Türkiyəyə keçib. Bundan başqa, 3 gün nəzərdə tutulan sessiyada qurumun İcraedici Şurasının, siyasi işlər, iqtisadiyyat və davamlı inkişaf, sosial və mədəni işlər, heyət və maliyyə qaydaları üzrə komitələrinin iclasları təşkil olunacaq. Deputatlarımız toplantılarda müzakirəyə təqdim edilən məsələlər barədə çıxış edəcəklər.

## “Periodico Italiano Magazine” jurnalında Ermənistan-Azərbaycan münaqişəsi barədə məqalə dərc edilib




İtaliyanın “Periodico Italiano Magazine” jurnalında Beynəlxalq İqtisadi və Siyasi Araşdırmalar İnstitutunun (IREPI) tədqiqatçısı Domeniko Letisiyanın jurnalın müxbiri Karla De Leoya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı verdiyi müsahibə dərc olunub. AZƏRTAC xəbər verir ki, müsahibədə D.Letisiya Ermənistanın Azərbaycana qarşı təcavüzü, Dağlıq Qarabağ münaqişəsinin başvermə səbəbləri, hüquqi aspektləri, həmçinin həlli istiqamətində aparılan sülh danışıqları və mövcud vəziyyətlə bağlı fikirlərini ifadə edib. Tədqiqatçı bildirib ki, münaqişə nəticəsində Ermənistan Azərbaycanın təkcə Dağlıq Qarabağ regionunu deyil, ona bitişik yeddi ətraf rayonunu da işğal edib, nəticədə bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib. Ermənistan işğal olunmuş ərazilərdə etnik təmizləmə həyata keçirib və bəşər tarixinin ən dəhşətli soyqırımı aktlarından biri olan Xocalı soyqırımını törədib.

Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təsdiq edən, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etdiyini xatırladan tədqiqatçı münaqişənin həlli üçün həmin qətnamələrə hörmət və istinad edilməli olduğunu vurğulayıb. D.Letisiya münaqişənin sülh yolu ilə həlli istiqamətində Azərbaycan və Ermənistan prezidentlərinin Cenevrədə keçirdikləri son görüş haqqında danışaraq, hər iki ölkənin xarici işlər nazirlərinin və ATƏT-in Minsk qrupunun həmsədrlərinin görüşün nəticələri ilə bağlı bəyanatını diqqətə çatdırıb. Bununla belə, o, görüşün nəticələrindən yaranan müsbət əhval-ruhiyyəni prezident Serj Sarkisyanın razılaşmalara əks olaraq Ermənistanın İsveçrədəki səfirliyində erməni diasporunun nümayəndələri ilə keçirdiyi görüşdə verdiyi bəyanatlarla korladığını qeyd edib. Ermənistanın Azərbaycan ordusu haqqında qəsdən təhrif edilmiş yalan məlumatlar yaydığını bildirən tədqiqatçı Azərbaycanın beynəlxalq normalara uyğun olaraq nizami orduya malik olduğunu vurğulayıb, əksinə, Ermənistan ordusuna isə erməni terror təşkilatı ASALA-nın üzvlərinin cəlb edilməsinə dair məlumatların mövcud olduğunu diqqətə çatdırıb.

Müsahibəsində 2016-cı ilin noyabr ayında Bakıda bir qrup azərbaycanlı və erməni fəal tərəfindən yaradılmış “Ermənistanla Azərbaycan arasında sülh naminə Platforma” haqqında da danışan Domeniko Letisiya platformanın yaradılmasında əsas məqsədin Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində sülh yolu ilə həllinə dəstək vermək olduğunu bildirib. O, platforma iştirakçılarının Ermənistana öz ordusunu işğal olunmuş Azərbaycan ərazilərindən çıxarmağa, həmçinin azərbaycanlı qaçqın və məcburi köçkünlərin doğma torpaqlarına qayıtmasını təmin etməyə çağırış etdiklərini vurğulayıb. Müsahibənin mətni ilə bu linkdən tanış olmaq mümkündür:

http://irepi.com/caso-nagorno-karabakh/

## Azərbaycanın müdafiə naziri: Ermənistan terrorizmi dəstəkləyən ölkədir



Noyabrın 21-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Milli Müdafiə Kollecinin nümayəndə heyətinin rəhbəri, briqada generalı Salim Əl-Şamsi ilə görüşüb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə regiondakı hərbi-siyasi vəziyyətə toxunan Zakir Həsənov Azərbaycanın uzun illər erməni terrorizmi, separatizmi ilə üzləşdiyini, erməni terrorçuları tərəfindən respublikamızın dinc əhalisinə qarşı onlarla terror aktlarının törədildiyini və Ermənistanın terrorizmi dəstəkləyən ölkə olduğunu vurğulayıb.

Ölkələrimiz arasında hərbi təhsil, hərbi sənaye və hərbi-texniki sahələrdə əməkdaşlığın müzakirə olunduğu görüşdə qeyd olunan sahələrdə münasibətlərin inkişafı üçün geniş perspektivlərin mövcudluğu qeyd edilib. Bildirilib ki, bütün istiqamətlərdə olduğu kimi hərbi sahədə də Azərbaycan-BƏƏ əməkdaşlığının genişləndirilməsi ölkələrimiz arasında münasibətlərin dərinləşməsinə, eləcə də regionda sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə layiqli töhfə verəcək.

## XİN: Fransanın qondarma rejimlə qanunsuz sənədlər imzalayan yerli orqanlara münasibətdə zəruri addımlar atacağını gözləyirik



ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən biri olan Fransaya Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərində yaradılmış qanunsuz rejimin təmsilçisi kimi özünü təqdim edən Bako Saakyan adlı şəxsin səfəri ilə əlaqədar kəskin etirazımızı ifadə edirik. Bunu AZƏRTAC-a açıqlamasında Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib. H.Hacıyev deyib: “Avropa İttifaqı ölkələrində fəaliyyət göstərən erməni lobbi dairələri və Ermənistan bu yolla Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qanunsuz rejimi təşviq etməyə və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllinə manea olmağa çalışır. Sözügedən məsələ ilə əlaqədar Fransanın Azərbaycandakı səfiri ilə XİN-də görüş keçirilib. Azərbaycan Respublikasının Fransadakı səfirliyinin isə bu gün Fransa XİN-də görüşü nəzərdə tutulub.

Təəssüflə qeyd edirik ki, Ermənistan Respublikasının diplomatik pasportu ilə səyahət edən Bako Saakyanın Avropa İttifaqının ərazisinə daxil olması Şenqen viza qaydalarının ciddi pozulması ilə müşayiət olunmasına və ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Fransanın öhdəliklərinə zidd olmasına baxmayaraq, Fransa tərəfindən bu səfərin qarşısının alınması üçün heç bir tədbir görülməyib.

2015-ci il iyulun 2-də Fransa hökuməti tərəfindən xarici işlər və daxili işlər nazirlikləri səviyyəsində yerli prefekturalar və ali komissarlara sirkulyar təlimat göndərilib. Həmin təlimatda yerli özünü idarəetmə qurumlarının beynəlxalq əməkdaşlıq sahəsində səlahiyyət məhdudiyyətlərinə dair xəbərdarlıq edilir və mərkəzi hakimiyyətin siyasətinə və Fransanın beynəlxalq öhdəliklərinə zidd olaraq, yerli orqanların Fransa hökumətinin tanımadığı qeyri-qanuni rejimlər, o cümlədən qondarma Dağlıq Qarabağla beynəlxalq əməkdaşlığa dair sənədlər imzalamasına qadağa qoyulur.

Fransa tərəfinin bu təlimatdan çıxış edərək Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimlə qanunsuz sənədlər imzalayan yerli orqanlara münasibətdə zəruri addımlar atacağını gözləyirik.

Son dövrlərdə Avropa İttifaqı üzv ölkələrinin də üzləşdiyi problemləri nəzərə alaraq, təhlükəli separatizm meyllərinin qarşısının alınması və dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı ilə əlaqədar vahid və birmənalı siyasətin yürüdülməsi mütləq şəkildə zəruridir”.

## Elman Rüstəmov: “Mərkəzi Bank gələn il də konservativ monetar siyasət yürüdəcək”



Mərkəzi Bank 2018-ci ildə də konservativ monetar siyasət yürüdəcək. AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin dünənki plenar iclasında “Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı Mərkəzi Bankın sədri Elman Rüstəmov deyib. Elman Rüstəmov bildirib ki, manatın məzənnəsinin sabitliyi gələn il də diqqət mərkəzində olacaq, valyuta bazarında sabitlik qorunacaq. Qeyd edilib ki, cari ildə tədiyə balansında profisit bərpa olunub - 1,1 milyard dollarlıq profisit əldə olunub. İdxalın azalması, qeyri-neft ixracının 35 faiz artması da tədiyə balansına təsir edən amillərdəndir. Cari ildə strateji ehtiyatlar 12 faiz, Mərkəzi Bankın ehtiyatları 31 faiz artıb. Ölkənin valyuta ehtiyatlarına qənaət edilib. Bank sədri deyib: “Hazırda bank aktivlərinin 20 faizdən çoxunu likvid aktivlər təşkil edir. Kredit portfelində aktivlik müşahidə olunmur. Mərkəzi Bankın sterilizasiya alətlərinə ehtiyac çoxdur”.

# Milli Məclisin növbəti iclası keçirilib



***Noyabrın 21-də Milli Məclisin növbəti iclası keçirilib. İclasda "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi və büdcə paketinə daxil olan digər qanun layihələri müzakirəyə çıxarılıb.***

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə və hökumət üzvləri iclasda iştirak ediblər. İclası açan Milli Məclisin sədri Oqtay Əsədov bildirdi ki, gündəliyin birinci məsələsi Azərbaycan Respublikasının 2018-ci il üçün dövlət büdcəsi layihəsidir.

Sədr diqqətə çatdırdı ki, Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş iqtisadi inkişaf strategiyası son illər dünya maliyyə-iqtisadi böhranı ilə əlaqədar ölkəmizdə makroiqtisadi sabitlik üçün yaranan təhlükələrin qarşısını almağa imkan verib. 2017-ci il ölkəmizin tarixində əlamətdar hadisələrlə yadda qalacaq. Bu hadisələrdən biri iki ay öncə "Azəri-Çıraq-Günəşli" neft və qaz yataqları blokunun işlənilməsinə dair Sazişin müddətinin 2050-ci ilədək uzadılması, digəri isə Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı olub. Həmin layihələr Azərbaycanın gələcək siyasi və iqtisadi dayanıqlığı üçün möhkəm zəmin yaradıb.

Oqtay Əsədov dedi: "Bu gün Milli Məclisdə müzakirəsinə başladığımız büdcə zərfinə daxil olan sənədlər ölkə həyatında müşahidə olunan müsbət dinamik dəyişiklikləri əks etdirir. Son illər ölkə iqtisadiyyatında baş verən önəmli hadisələrdən biri büdcə gəlirlərində qeyri-neft sektorunun payının təqribən 50 faizə çatması olub. Əgər qeyri-neft sektorunun mühüm hissəsi olan kənd təsərrüfatı istehsalının 2021-ci ilədək bütün vergilərdən azad edildiyi nəzərə alınarsa, bu göstəricinin arxasında nə qədər böyük bir potensialın dayandığını təsəvvür etmək olar".

Sədr bildirdi ki, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, eləcə də biznes mühitinin yaxşılaşdırılması, infrastrukturun inkişaf etdirilməsi, maliyyə bazarının təkmilləşdirilməsi və digər sahələrdə həyata keçirilən tədbirlər iqtisadiyyatımızın rəqabət qabiliyyətinin artmasına gətirib çıxarıb. Bunu qeyd etmək kifayətdir ki, Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan həmin göstəriciyə görə iki pillə də irəliləyərək dünyanın 140 dövləti arasında 35-ci yerə yüksəlib, MDB ölkələri arasında isə liderliyini qoruyub saxlayıb. 2018-ci il üçün dövlət büdcəsinin layihəsi ölkəmizin sosial-iqtisadi durumu və müasir dövrün çağırışları nəzərə alınmaqla tərtib olunub. Nazirlər Kabinetinin təqdim etdiyi büdcə zərfinin sənədləri göstərir ki, növbəti ildə də real iqtisadi artım proqnozlaşdırılır.

Qeyd edildi ki, gələn il üçün dövlət büdcəsinin gəlirləri 2017-ci ilin təsdiq edilmiş proqnozu ilə müqayisədə 3,3 milyard manat, xərcləri isə 3 milyard manat çox olacaq. Bütün bunlar iqtisadiyyata investisiya qoyuluşunun daha da artırılmasına, kənd təsərrüfatının stimullaşdırılmasına, milli təhlükəsizliyin və müdafiə qabiliyyətinin gücləndirilməsinə imkan yaradacaq.

Əvvəlki illərdə olduğu kimi, büdcənin sosialyönümlülüyü saxlanılır. Gələn ilin dövlət büdcəsinin xərclərində sosialyönümlü xərclərin xüsusi çəkisi 33,5 faiz və ya 7 milyard manat proqnozlaşdırılır. Bu, 2017-ci ilə nisbətən 2,2 faiz çoxdur. Vurğulandı ki, 2018-ci ilin dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil olan sənədlər parlament komitələrinin birgə iclaslarında geniş müzakirə olunub və Milli Məclisin plenar iclasına tövsiyə edilib. Komitə iclaslarında 35-dən çox deputat çıxış edib. Hesablama Palatası da büdcə zərfi barədə müsbət rəyini bildirib. Sədr plenar iclaslarda aparılacaq müzakirələrin səmərəli olacağına əminliyini ifadə etdi.

Sonra çıxış edən Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirdi ki, 2017-ci ildə ölkəmizin iqtisadiyyatında baş vermiş mühüm hadisələr 2018-ci ildə onun daha da inkişaf edəcəyinə inamı artırır. Azərbaycan dövləti 2017-ci ildə heç bir sosial proqramın icrasını dayandırmayıb, valyuta ehtiyatlarını artırıb, tədiyyə balansının göstəricilərini yaxşılaşdırıb. Dövlət büdcəsinin gəlirləri 2017-ci il üzrə təsdiq olunmuş proqnozla müqayisədə 20 faiz çoxdur. Bu, kifayət qədər böyük artımdır. Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi tərəfindən büdcəyə daxilolmalar yüksək səviyyədə yerinə yetirilib.

2018-ci ildə neft hasilatının azalmasına baxmayaraq, ölkədə ümumi iqtisadi artım proqnozlaşdırılır. Azərbaycan dünyada ən az borcu olan 10 ölkədən biridir. Ölkədə borcalma strategiyası hazırlanıb. Bununla yanaşı, kommersiya banklarına inam artırılmalı və banklarla əhali arasında konsensus yaradılmalıdır. Azərbaycanın 2018-ci il dövlət büdcəsində neftin baza qiymətinin 45 dollar/barrel səviyyəsində götürülməsi qarşıdakı hədəflərə nail olmağa imkan verəcək.

Bu rəqəm daha çox və ya daha az ola bilərdi. Birinci halda hökumət risklərə məruz qala, ikinci halda isə iqtisadi-sosial inkişafımızdan geri qala, bir sıra mühüm layihələrin reallaşmasında çətinliklərlə üzləşə bilərdik. Sonra Ziyad Səmədzadə aparılan təhlillərdən danışdı və qeyd etdi ki, son 10 ildə Dövlət Neft Fondundan 76 milyard dollar transfert etmişik və bu olmasaydı Azərbaycan risklərlə üzləşə bilərdi.

İclasda çıxış edən maliyyə naziri Samir Şərifov bildirdi ki, 2018-ci il üçün dövlət büdcəsinin gəlirləri 20,127 milyard manat həcmində proqnozlaşdırılır. Bu da ümumi daxili məhsulun 29 faizi həcmində olmaqla, 2017-ci ilin təsdiq edilmiş proqnozu ilə müqayisədə 3,361 milyard manat və ya 20 faiz, 2016-cı ilin faktiki icra göstəricisi ilə müqayisədə isə 2,621 milyard manat və ya 15 faiz çoxdur.

Nazir bildirdi ki, 2018-ci il dövlət büdcəsinin gəlirləri üzrə proqnozun 7,907 milyard manatı və ya 39,3 faizi Vergilər Nazirliyinin xətti ilə daxilolmaların, 9,216 milyard manatı və ya 45,8 faizi Dövlət Neft Fondundan transfertin, 2,43 milyard manatı və ya 12,1 faizi Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 574 milyon manatı və ya 2,8 faizi isə digər gəlirlərin payına düşür.

Bildirildi ki, Azərbaycanın 2018-ci il dövlət büdcəsində neftin baza qiyməti 45 dollar/-barrel səviyyəsində götürüləcək ki, bu da 2017-ci ildəki analoji baza qiymətindən 12,5 faiz və yaxud 5 dollar/barrel çoxdur. Nazir diqqətə çatdırdı ki, 2018-ci ilin büdcə xərclərinin ümumi daxili məhsulda xüsusi çəkisi 30,1 faiz təşkil edəcək ki, bu da 2017-ci ilə nisbətən 3,8 faiz bənd çoxdur. Mütləq ifadədə 2018-ci ilin dövlət büdcəsində xərclər 20,906 milyard manat həcmində proqnozlaşdırılır ki, bu da 2017-ci illə müqayisədə 2,965 milyard manat və ya 16,5 faiz artıqdır. 2018-ci il üçün büdcə kəsiri 778,7 milyon manat həcmində nəzərdə tutulub. Bildirildi ki, Azərbaycanın 2018-ci il icmal büdcəsinin gəlirləri 23223,2 milyon manat məbləğində proqnozlaşdırılır. Gələn ilin dövlət büdcəsinin layihəsi hazırlanarkən 2018-2021-ci illərin makroiqtisadi proqnozları və qlobal iqtisadi prosesləri nəzərə alınıb.

Nazir dedi ki, Prezident İlham Əliyevin rəhbərliyi altında görülən iqtisadi siyasət tədbirləri ötən müddətdə hədəflənən nəticələrə nail olunduğunu göstərir. Belə ki, məqsədyönlü siyasət nəticəsində ölkədə qeyri-neft sektoru üzrə 2,5 faizlik real artıma nail olunub. Ticarət dövriyyəsində 4,4 milyard dollar müsbət saldo əldə edilib. O cümlədən dövlətin qeyri-neft sektorunun inkişafına artan maliyyə dəstəyi və qeyri-neft ixracının stimullaşdırılması, valyuta ehtiyatlarından qənaətlə istifadə edilməsi, ölkəyə valyuta axınının artması, digər fiskal və monetar tədbirlərin həyata keçirilməsi hesabına 2017-ci ilin əvvəlinə nisbətən 9 ayda icmal büdcənin kəsiri 12 faiz bənd azalıb.

Samir Şərifov 2018-ci ilin dövlət büdcəsi hazırlanarkən ölkənin müdafiə qabiliyyətinin daha da yüksəldilməsi, kənd təsərrüfatı sahəsinin inkişafı, məşğulluğun artırılması və sosialyönümlü tədbirlərin, əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı zəruri xərclərin prioritet olaraq qaldığını qeyd etdi.

İqtisadiyyat naziri Şahin Mustafayev bildirdi ki, Maliyyə Sabitliyi Şurası tərəfindən təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq ötən dövrdə makroiqtisadi və maliyyə sabitliyinin təmin olunması, o cümlədən valyuta bazarının tarazlaşdırılması, valyuta rejiminin təkmilləşdirilməsi, gömrük-tarif siyasətində və dövlət satınalmalarında idxalın məhdudlaşdırılması, habelə ixracın stimullaşdırılması istiqamətində əhəmiyyətli işlər görülüb.

Nazir dedi ki, artıq neçə illərdir aparılan bu islahatlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. "Doing Business 2018" hesabatında Azərbaycan ötən illə müqayisədə 8 pillə irəliləyib, Avropa və Mərkəzi Asiya regionunda 4 və daha çox islahat aparan 3 ölkədən biri olub.

Şahin Mustafayev əlavə etdi ki, sistemli islahatların davam etdirilməsi, bank sektorunun sağlamlaşdırılması və valyuta bazarında gözləntilərin səmərəli idarə olunması, makroiqtisadi sabitliyə təhdid yaradan xarici iqtisadi şokların yaşanmaması şərtləri əsas götürülməklə növbəti ildə inflyasiyanın birrəqəmli, iqtisadi artımın isə müsbət olması proqnozlaşdırılıb. Qeyd edilənlər, habelə neft sektorunun azaldıcı, qeyri-neft sektorunun artırıcı təsirləri nəzərə alınmaqla 2018-ci ildə ümumi daxili məhsulun 1,5 faiz, növbəti illərdə isə orta hesabla 3,5 faiz artacağı proqnozlaşdırılır.

Növbəti ildə əsas kapitala investisiya qoyuluşlarının 15,9 milyard manat, xarici investisiyaların 7,7 milyard manat, daxili investisiyaların 8,2 milyard manat olacağı proqnozlaşdırılır. Neft sektoruna 6,4 milyard manat, qeyri-neft sektoruna isə 9,5 milyard manat investisiya yatırılacağı gözlənilir. 2018-ci ildə dövlət investisiya xərcləri 4,9 milyard manat olmaqla, əsasən ölkə üçün əhəmiyyətli olan infrastruktur layihələrinin, o cümlədən təhsil, səhiyyə, əhalinin sosial müdafiəsi və sosial təminatı layihələrinin icrasına yönəldiləcək.

Nazir qeyd etdi ki, qeyri-neft sənayesinin stimullaşdırılmasında sənaye və texnologiyalar parkları və sənaye məhəllələri mühüm rol oynayır. Sumqayıt Kimya Sənaye Parkının yaradılmasından qısa zaman keçməsinə baxmayaraq, layihələrin ümumi dəyəri 1,8 milyard dollar olan 13 müəssisəyə rezident statusu verilib. Bunlardan 2 müəssisə artıq fəaliyyət göstərir, 4 müəssisə bu il, gələn il isə daha 5 müəssisə fəaliyyətə başlayacaq.

Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov bildirdi ki, 2017-ci il iqtisadi quruculuq tariximizdə milli iqtisadiyyatın yeni neft qiymətlərinə əsasən uyğunlaşması, makroiqtisadi sabitliyin bərqərar olması və post-neft dövrünə keçidin başlanması ilə yadda qalacaq.

O qeyd etdi ki, Maliyyə Sabitliyi Şurası tərəfindən formalaşdırılan makroiqtisadi sabitlik siyasəti çərçivəsində mühüm siyasət istiqamətlərinin sıx koordinasiyası artıq 2017-ci ilin birinci rübündə ilk nəticələrin əldə olunmasına və sonrakı dövrdə bunun inkişaf etdirilməsinə şərait yaradıb. Reallaşdırılan kompleks makroiqtisadi tədbirlər, ilk növbədə, monetar və fiskal siyasətin sıx əlaqələndirilməsi, çevik məzənnə rejiminə keçid ölkənin xarici tədiyyə balansının tarazlaşmasına şərait yaradıb. Tədiyyə balansında profisit cari ildə bərpa olunub. Tədiyyə balansının cari əməliyyatlar hesabında 2016-cı ildə 1,4 milyard dollarlıq kəsir olmuşdusa, cari ilin 9 ayında 1,1 milyard dollarlıq profisit qeydə alınıb. İdxalın azalmasına paralel olaraq qeyri-neft ixracının güclənməsi tədiyyə balansına müsbət təsir edir. Qeyri-neft ixracı 9 ayda təxminən 31 faiz artıb. Ticarət balansı ilə yanaşı, xidmət balansı üzrə də müsbət meyillər müşahidə edilir. Turizm xidmətlərində isə artıq müsbət saldo yaranıb. Nəticədə cari ildə strateji ehtiyatlar təxminən 12 faiz, o cümlədən Mərkəzi Bankın ehtiyatları 31 faiz artaraq ölkənin strateji valyuta ehtiyatları 42 milyard dolları ötüb.

Sonra çıxış edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov gələn ilin dövlət büdcəsi ilə bağlı palatanın rəyini açıqladı. Bildirildi ki, növbəti ilin dövlət büdcəsinin xərclərini fərqləndirən əsas məqamlardan biri odur ki, 2018-ci ildə son illərdə azalma ilə proqnozlaşdırılmış dövlət investisiya xərclərində nəzərəçarpacaq artım proqnozlaşdırılıb. Bu da büdcə gəlirlərinin və iqtisadi aktivliyin gücləndirilməsində mühüm rol oynayacaq.

Bildirildi ki, növbəti ildə dövlət idarəetmə strukturunun təkmilləşdirilməsi məqsədilə yaradılmış publik hüquqi şəxs kimi fəaliyyət göstərən bir sıra dövlət idarəetmə təşkilatlarının saxlanmasına növbəti ildən vəsait nəzərdə tutulmayıb. Gələn ilin dövlət büdcəsində ilk dəfə olaraq "İşsizlikdən sığorta haqqında" Qanunun qüvvəyə minməsi ilə əlaqədar fəaliyyətə başlayacaq bu sistemdə dövlət büdcəsindən maliyyələşən təşkilatlar üzrə sığortaedənin payının maliyyələşdirilməsi ilə bağlı vəsait proqnozlaşdırılıb. Büdcənin 2018-ci il üzrə proqnozlaşdırılmış göstəriciləri əsasında aparılmış hesablamalar beynəlxalq təcrübədə və nəzəriyyədə qəbul edilmiş borc göstəriciləri üzrə müqayisədə ölkəmizdə borc dayanıqlığının mövcud olduğunu göstərir. Növbəti ilin büdcə layihəsində daxili və xarici dövlət borclanmasının yuxarı hədləri, həmçinin 2018-ci il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) azalma ilə proqnozlaşdırılıb. Bu isə növbəti illərdə dövlət borclanmasının və şərti öhdəliklərin artım tempinin azalmasına münbit şərait yaradacaq.

Müzakirələr zamanı çıxış edən deputatlar Siyavuş Novruzov, Aqiyə Naxçıvanlı, Zahid Oruc, Hikmət Məmmədov, Məlahət İbrahimqızı, Sahibə Qafarova, Fazil Mustafa, Qüdrət Həsənquliyev, Elmira Axundova, Fərəc Quliyev, Aydın Mirzəzadə, Qənirə Paşayeva, Fəzail Ağamalı, Əli Məsimli və Vahid Əhmədov 2018-ci ilin dövlət büdcəsi layihəsi barədə fikirlərini açıqladılar, öz qeyd və təkliflərini verdilər. Çıxışlarda qeyd edildi ki, müzakirəyə təqdim olunan sənəd dünyada davam edən iqtisadi böhran şəraitində risklər nəzərə alınmaqla peşəkarlıqla hazırlanıb. İclasın sonunda müzakirələrin noyabrın 22-də davam etdirilməsi qərara alındı.

***Rəfiqə KAMALQIZI***

# Siyavuş Novruzov: "Əli Kərimlinin ipi erməni lobbisinin əlindədir"

**Azərbaycan iqtidarının sosial-iqtisadi islahatlar və kadr dəyişikliyi fonunda atdığı mühüm addımların hər biri, bu ölkənin əleyhinə işləyən daxili düşmənlərin başına elə bil qaynar su tökür. Yəqin ki, normal düşüncəyə malik olan insanlar dəfələrlə bu amilin şahidi olublar.**



Elə bu günlərdə Bakı- Tbilisi- Qars dəmir yolu kimi dünyanın ən iri layihəsindən birinin icrasının başa çatması, baş qaragüruhçu Əli Kərimlinin başına 100 dərəcə selsidə qaynayan suyun tökülməsi kimi olub. Belə qaynar sular, Ə.Kərimli ilə yanaşı, Müsavatı və bu kimi digər dağıdıcı müxalifət partiyalarının saxta liderlərinin də başına tökülməklə yandırıb. Bu yandırmaqla da, bu qədər yekəbaşlıqlara, təkəbbürlərə və özündən müştəbeh çıxışlara yol verirlər. Məsələ də ondadır ki, həmişə olduğu kimi, bu uğurlu layihənin reallaşmasından sonra Ə.Kərimli yenə də paytaxt sakinlərini meydana çağırıb. Söhbətin əsas məğzi də elə bundan ibarət idi. Xalqın, millətin, dövlətin yalnız inkişafını və rifah halının yaxşılaşmasını istəyən dövlət rəhbərliyimizin bu yöndə gəldiyi qənaətlər, verilən qərarlar, həyata keçirilən layihələr Ə.Kərimli, İ.Qəmbər və s. xarici əllərdə oynadılan ipli kuklaların qıcıqlanmalarına səbəb olur. Niyə? Hansı səbəbdən? Həm də nə üzlə?!

Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov AXCP sədri Ə.Kərimli kimisatılıb -satanlardan nə gözləmək olduğunu bildirib: "Ə.Kərimlinin fikirləri erməni lobbisinin, Azərbaycanı istəməyən dövlətlərin, ölkəmizə qarşı təzyiq göstərməyə çalışan beynəlxalq qurumların fikirləri üst-üstə düşür. Yəni bunlar eyni mənbədən istiqamətləndirilir. AXCP-dən istefa verən şəxslər də bildiriblər ki, Ə.Kərimli Azərbaycan xalqının maraqlarının deyil, başqa-başqa dövlətlərin, qurumların, xüsusilə, erməni lobbisinin maraqlarını həyata keçirməklə məşğuldur. O baxımdan, ölkədə görülən işlərə kölgə salmaq, mənfi fikir söyləmək, çox primitiv şəkildə, saxta rəqəmlərlə insanları çaşdırmaq bilavasitə həmin təxribatçı qrupların planının tərkib hissəsidir. Təsəvvür edin, bütün dünya ölkələri maliyyə-iqtisadi böhranı etiraf edir, onun zərərlərindən danışır, amma Ə.Kərimli sübut etməyə çalışır ki, dünyada iqtisadi böhran yoxdur. Hazırda bütün Şərqi Avropa, eləcə də, Avropanın digər hissəsinə aid olan ölkələr böhran içərisindədir. Elə təkcə Yunanıstanı götürək ki, hansı vəziyyətdədir. Ən qədim Avropa dövlətlərindən biridir. Bu dövlətin iqtisadi böhran məngənəsində necə sıxıldığını az qala bütün dünyanın vətəndaşları bilir. Bəs Ə.Kərimli kimilər bunu görmür? Sabitlik faktoru hər bir cəmiyyətin inkişafında çox ciddi məsələdir."

## "Ölkəmizdə sabitliyin pozulması həm Ə.Kərimlinin, həm də onu maliyyələşdirən, arxasında dayanan və himayə edən qurumların arzusudur"

S.Novruzov ölkəmizdə sabitliyin pozulmasının həm Ə.Kərimlinin, həm də onu maliyyələşdirən, arxasında dayanan, himayə edən qurumların arzusu olduğunu bildirib: "Çünki bunlar eyni şəbəkənin nümayəndələridir. Sabitlik onlara sərf etmir. AXCP sədri bacarırsa, ölkəmizdəki sabitlik şəraitində hansısa proqramla çıxış etsin, amma bunu bacarmır. Xalq bilir ki, o, hansı yuvanın quşudur. Özü də partiyanı tamam dağıdıb. Elçibəydən qalan partiyadan əsər-əlamət yoxdur. Təsəvvür edin ki, bu adam böyük layihələrin əhəmiyyətini də kiçiltməyə çalışır. Bilirsiniz ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə əlaqədar vaxtilə Azərbaycana qarşı nə qədər təzyiqlər oldu. Amma ölkəmiz prinsipial mövqeyindən dönmədi. Amma Ə.Kərimli bu məqamda bir dəfə də olsun xalqın maraqlarının müdafiəsi üçün bir bəyanat verdimi? Yox. Əksinə, həmişə deyirdilər ki, bu layihə xülyadır, reallaşmayacaq. TANAP və TAP layihələrinin reallaşmasında da nə qədər təziyqlər fonunda ölkəmiz qətiyyətli mövqeyini qorudu, dövlətimizin başçısının iradəsi nəticəsində reallaşdı. Bu layihələr milli maraqlarımıza uyğun olaraq reallaşdırılır. Bunun üçün qətiyyətli, cəsarətli dövlət başçısı lazımdır, müstəqil siyasət lazımdır. Müstəqil siyasətimiz isə Ə.Kərimli kimilərə sərf etmir. O istəyir ki, dövlətimiz Ermənistan kimi kiminsə qoltuğunun altında sürünsün. Bu gün Azərbaycan bütün dövlətlərlə bərabərhüquqlu münasibət qurur. Bu da iri dövlətlərə sərf etməyəndə, burada oturan vassallarının ipini dartırlar. Onlar da xalqı aldatmaq istəyir və sosial-iqtisadi vəziyyətlə bağlı səsləndirilən fikirlər də bu işlərə xidmət edir. Artıq hamıya bəllidir ki, cəmiyyət onları qəbul etmir. Ona görə də onlar tarixin arxivinə, özü də qara arxivinə birdəfəlik gedəcəklər".

Həqiqətən də, xalq sizlərə inanmır. Bu gün AXCP sədrinin dərhal feysbuka çıxıb, artistlik etməsinə də ehtiyac yoxdur. Hələ də anlamaq istəmir ki, onun bütün mitinqlərdə söylədiyi naftalin iyi verən fikirlər heç kəsə lazım deyil və onu ciddi qəbul edən yoxdur. Heç kimə lazım olmadığını bilə-bilə böhtan dolu açıqlamalarla erməni sayt və qəzetlərinin manjetlərinə çıxmaq isə, satqınlığını bir daha sübut etməkdir. Ə.Kərimlinin xisləti belədir. O, yaxşılıq və faydalılıq üçün yaranmayıb. Ə.Kərimli Azərbaycan siyasətinin çömçəsidir, missiyası qarışdırmaq və qarşıdurma yaratmaq cəhdidir.

**Rəfiqə HÜSEYNOVA**

# Bəhruz Quliyev: "Yeni Azərbaycan Partiyasını xalqa Ulu Öndər təqdim edib"

*"İlham Əliyevin həm Lider kimi, həm Prezident kimi xalqa söykənməsi əbədi müstəqilliyimizi təmin edir"*



"Yeni Azərbaycan Partiyasının yaranması ölkədə xaos və anarxiyanın tüğyan etdiyi dövrə təsadüf edir. Həmin dövrdə ölkə məhv olmaq təhlükəsi ilə üzüzə qalmışdı. Bu baxımdan, yeni bir siyasi qüvvənin yaranmasına zərurət yaranmışdı və respublikanın hər yerindən Ulu Öndərə çoxsaylı müraciətlər daxil olurdu. Beləliklə, xalqın sosial sifarişi ilə 1992-ci il noyabrın 21-də - cəmiyyətin bütün təbəqələrini təmsil edən 550 nümayəndənin iştirakı ilə Naxçıvanda keçirilən təsis konfransında Ulu Öndər Heydər Əliyev Yeni Azərbaycan Partiyasının Sədri seçildi. Bununla da, ölkəmizin ictimai-siyasi həyatına Yeni Azərbaycan Partiyası adı altında qüdrətli bir təşkilat daxil oldu". Bu sözləri SİA-ya "SƏS" qəzetinin baş redaktoru Bəhruz Quliyev hakim partiyanın 25 illik yubileyi münasibəti ilə bağlı fikirlərini açıqlayarkən deyib: "İstənilən siyasi təşkilat yaradılarkən, həmin təşkilatın lideri xalqa təqdim edilir, amma Yeni Azərbaycan Partiyasını və onun ideoloji prinsiplərini məhz Ulu Öndərimiz xalqa təqdim etdi. Çünki Dahi Öndər Heydər Əliyevin hər hansı bir təqdimata ehtiyacı yox idi, Onun nəhəng nüfuzunu bütün dünyanın siyasi çevrələri tanıyır və qəbul edirdi".

"Əbəs yerə deyil ki, partiya təsis olunduqdan sonrakı qısa dövr ərzində, hətta o zamankı naşı hakimiyyətin ciddi manelərinə, təqiblərinə baxmayaraq, şəhər və rayon təşkilatlarını yaratdı"-deyə qeyd edən Bəhruz Quliyev onu da vurğulayıb ki, təməli xalqın iradəsi və tükənməz dəstəyi ilə qoyulan YAP bu gün də həmin vəhdət əsasında fəaliyyətini göstərməkdə, yeni-yeni uğur və qələbələr əldə etməkdə davam edir: "Ona görə də Ulu Öndər Heydər Əliyev yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edir, sıralarını kəmiyyət və keyfiyyət baxımından daha da möhkəmləndirir. Ulu Öndər Heydər Əliyev demək olar ki, partiyamızın fəaliyyəti ilə bağlı çıxışlarının hər birində vurğulayırdı ki, Yeni Azərbaycan Partiyasına xidmət etmək dövlətə, xalqa xidmət etmək deməkdir. Bu baxımdan, həmin fikrin davamı olaraq, Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev bildirir ki, Yeni Azərbaycan Partiyasının üzvü olmaq böyük məsuliyyətdir. Bu gün partiyanın 700 mindən artıq üzvləri ölkənin inkişafına və tərəqqisinə öz töhfələrini verirlər. Onlar ölkənin ictimai-siyasi həyatında fəal iştirakları ilə həyata keçirilən siyasətə dəstək olduqlarını öz əməli fəaliyyətləri ilə nümayiş etdirirlər. Cəmiyyətin bütün sferalarında özünü ən yüksək səviyyədə təsdiq edən partiyamız məhz Onun ideoloji prinsiplərindən doğan fəaliyyətləri nəticəsində ümumxalq partiyasına çevrilib. Yeni Azərbaycan Partiyasının keçdiyi 25 illik yol xalqın ona olan rəğbətinin bariz təzahürüdür. Çünki partiyamızın Sədri Cənab İlham Əliyevin siyasi fəaliyyəti, bilavasitə Ulu Öndərimiz tərəfindən əsası qoyulmuş əbədi prinsiplərə söykənir. Bu gün Cənab İlham Əliyevin həm Lider kimi, həm Prezident kimi xalqa söykənməsi əbədi müstəqilliyimizi təmin edir".

Bəhruz Quliyev sonda Yeni Azərbaycan Partiyasının 25 illik yubileylə bağlı siyasi əqidədaşlarına öz ürək sözlərini də çatdırıb: "Mən də Yeni Azərbaycan Partiyasının hər bir üzvünü təşkilatımızın 25 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edir, dövlətimizin, xalqımızın inkişaf və tərəqqisində yorulmadan, əzmlə çalışmalarını arzulayıram".

**Rövşən NURƏDDİNOĞLU**



## Azərbaycanın energetika naziri Qaz İxrac edən Ölkələr Forumunun IV sammitində iştirak edəcək

Azərbaycanın energetika naziri Pərviz Şahbazov noyabrın 24-də Boliviyada keçiriləcək Qaz İxrac edən Ölkələr Forumuna (Gas Exporting Countries Forum - GECF) üzv ölkələrin dövlət və hökumət başçılarının IV Zirvə Toplantısında iştirak edəcək. Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, sammitdə qaz sənayesi, qaz bazarının mövcud vəziyyəti və perspektivlərinin, eləcə də qaz ixrac edən ölkələr arasında əməkdaşlığın inkişafı ilə bağlı məsələlərin müzakirəsi nəzərdə tutulur.

## "ASAN Radio" Gəncədə yayıma başlayıb




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən yaradılan "ASAN Radio" Gəncə şəhəri və ətraf bölgələrdə 96.5 Mhz tezliyində yayıma başlayıb. AZƏRTAC xəbər verir ki, indi "ASAN Radio"nu Gəncə şəhəri ilə yanaşı, Yevlax, Mingəçevir, Ucar, Naftalan, Goranboy və digər iri şəhər və rayonlarda da dinləmək mümkündür. Qeyd edək ki, "ASAN Radio" Bakı, Abşeron və Sumqayıtda 100.0 Mhz tezliyində, Lerik, Lənkəran, Masallı, Cəlilabad, Neftçala, Salyan, Şirvan, Hacıqabul, Biləsuvar, Saatlı, Sabirabad, İmişli rayonlarında isə 92.7 Mhz tezliyində yayımlanır. Hazırda "ASAN Radio"nun yayım dairəsi Azərbaycan Respublikası bölgələrinin 65-70 faizini əhatə edir.Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində fəaliyyət göstərən və 2015-ci ildə yaradılan "ASAN Radio" dövlət xidmətləri sahəsində ixtisaslaşan ilk və yeganə radiodur.

## "Azərbaycanda xarici borclanma ilə bağlı strategiya hazırlanır"



Azərbaycanda xarici borclanma ilə bağlı strategiya hazırlanır. AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin dünənki plenar iclasında "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə deyib.

Ziyad Səmədzadə bildirib ki, bu gün Azərbaycan dünyada ən az xarici borcu olan on ölkədən biridir. "Hesab edirəm ki, biz borclanmaya getməliyik. Çünki borc almayan və verməyən ölkəyə kredit verilmir. Ona görə Azərbaycan da xarici borclanmaya getməlidir. Biz xarici borclanmaya getməklə müasir texnoloji avadanlıqlar almalıyıq. Bu olmadan iqtisadiyyatı inkişaf etdirə bilmərik", - deyə komitə sədri vurğulayıb.

Z.Səmədzadə diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin tapşırığına əsasən hazırlanan xarici borclanma ilə bağlı xüsusi strategiya daha məsuliyyətli yanaşmanı təmin edəcək. Bu borclanma iqtisadiyyatımızın daha da inkişafına təkan verəcək. Lakin hər istəyən borc ala bilməyəcək. Çünki bütün borclar ekspertizadan keçəcək. Lazımsız borclanmaya gedənlər isə məsuliyyətə cəlb olunacaq. Artıq bununla bağlı qanunvericiliyə müvafiq dəyişikliklər də edilib.

# 25 illik möhtəşəm uğurlu yol

**“Yeni Azərbaycan Partiyası artıq 25 ildir ki, Azərbaycan dövlətçiliyinin inkişafında mühüm rol oynayır. Ulu Öndərimiz Heydər Əliyevin adı ilə bağlı olan YAP xalqımızın və respublikamızın müstəqilliyi istiqamətində böyük mübarizə yolu keçib”. Bu fikirləri “SƏS” qəzetinə Yeni Azərbaycan Partiyasının Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva hakim partiyanın yaradılmasının 25 illik yubileyi ilə bağlı təəssüratlarını bölüşərkən deyib.**

Mehriban Abasquliyeva qeyd edib ki, ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəni bürümüş dərin siyasi-iqtisadi və sosial böhran sadə xalqla yanaşı, ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi: “Məhz həmin vaxt Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə Naxçıvana Ulu Öndər Heydər Əliyevə müraciət göndərildi. Həmin müraciətdən sonra Azərbaycanın ictimai-siyasi həyatına yeni bir qədəm basıldı. Bu, bir xilas yoluna doğru atılan ilkin addımlar idi”.

YAP Sabunçu rayon təşkilatının sədri, həmçinin deyib ki, Azərbaycanın ictimai-siyasi həyatında çoxşaxəli fəaliyyəti ilə xüsusi yer tutan YAP yarandığı dövrdən şərəfli bir yol keçib: “Təbii ki, ölkəmizin əldə etdiyi uğurlarda partiyamızın da özünəməxsus rolu və payı var. Hazırda isə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası uğurla fəaliyyət göstərir və regionun ən güclü siyasi qüvvəsinə çevrilib”.



*Mehriban Abasquliyeva: “Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası uğurla fəaliyyət göstərir və regionun ən güclü siyasi qüvvəsinə çevrilib”*

Yeni Azərbaycan Partiyasının zəngin seçki təcrübəsinin də olduğunu vurğulayan Mehriban Abasquliyeva deyib ki, YAP-ın gücünün əsasını Ulu Öndər Heydər Əliyevin əbədi ideyaları təşkil edir: “Xalqımız Ulu Öndərimizin ideyalarına sadiqdir. Çünki bu ideyalar inkişafımızın əsasını təşkil edir. Prezident İlham Əliyev tərəfindən bu gün Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsi Azərbaycanı daha da güclü dövlətə çevirir. Təbii ki, uğurlu siyasət seçkilərdə partiyamızın qələbələr qazanmasının əsas amilidir. Çünki Azərbaycan hüquqi dövlətdir və ölkəmizdə demokratik seçki sistemi formalaşıb. Azərbaycanda mükəmməl seçki qanunvericiliyi var və bu hüquqi baza beynəlxalq standartlara tam uyğundur. Məhz bunun nəticəsidir ki, ildən-ilə seçki təcrübəsi təkmilləşdirilir və ölkəmizdə demokratik və şəffaf seçkilər keçirilir.

Ümumiyyətlə, ölkəmizin ən güclü siyasi qüvvəsi olan YAP bütün seçkilərdə qələbə qazanıb. Bütün bunlardan nəticə çıxararaq, deyə bilərəm ki, artıq 25-ci ildönümünü yaşayan partiyamız özünü regionun ən güclü siyasi təşkilatı olduğunu sübuta yetirib”.

**RƏFİQƏ HÜSEYNOVA**

# 25 ildir ki, YAP uğurla inkişaf edir

**Məlum olduğu kimi, noyabrın 14-də Heydər Əliyev Mərkəzində ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibəti ilə tədbir keçirildi.**

Tədbirdə Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev çox mühüm tarixi çıxış etdi və ölkəmizin iqtisadi, hərbi uğurlarından danışdı və eləcə də, bəzi xarici qüvvələrin müxalifət partiyalarını maliyyələşdirməsindən, “beşinci kolon”un yaradılmasına cəhdlərdən bəhs etdi. Söhbət etdiyimiz müsahiblərimiz tədbirin önəmini yüksək qiymətləndirərək, Prezident İlham Əliyevin çıxışının gələcək inkişaf üçün bir tezis və istiqamət olduğunu bildirdilər.

*Millət vəkili Eldəniz Səlimov:*
***“Hər bir YAP üzvünün ölkəmizin inkişafında xidmətləri vardır”***



- Yeni Azərbaycan Partiyasının 25 illiyinə həsr olunmuş təntənəli yığıncaqda Yeni Azərbaycan Partiyasının Sədri, Möhtərəm Prezidentimiz İlham Əliyevin nitqi Yeni Azərbaycan Partiyasının üzvlərinin və ümumilikdə, ölkəmiz üçün gələcəyə hesablanmış proqram kimi qəbul edilir. Möhtərəm Prezident çıxışında son 25 ildə ölkəmizin əldə etdiyi iqtisadi-siyasi və hərbi uğurlardan danışaraq, qarşıda duran hədəflərə çatmaq istiqamətini də müəyyənləşdirmişdir. Partiyanın fəaliyyəti, ideyaları və apardığı siyasət gənc nəsil üçündə cəlbedicidir. 25 ildir ki, YAP uğurla inkişaf edir və bütün seçkilərdə qalib gəlib. Bu gün ölkəmizdə YAP-a rəqib ola biləcək siyasi qüvvə yoxdur. Cəmiyyətimizin bütün təbəqələri YAP-da birləşirlər. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş sabitlik və stabillik bu gün də Azərbaycanda davam edir və bundan sonra da davam edəcəkdir. Heç bir ölkə sabitlik olmadan inkişaf edə bilməz. Biz demokratik cəmiyyət qururuq. Ölkəmizdə uğurla həyata keçirilən daxili siyasət nəticəsində stabilliyi qoruyub-saxlayır və ölkənin inkişafı üçün geniş imkanlar yaradılır. Müstəqil xarici siyasətimiz həyatda özünü təsdiqləmişdir. Ölkənin mənafeyini qorumaqla beynəlxalq təşkilatlara qoşuluruq. Bu gün ölkəmizin böyük bir hissəsində sürətli internetdən geniş istifadə olunur. 3-cü süni peykin orbitə buraxılmasına hazırlaşırıq. Ölkəmizin iqtisadi inkişafı bizə imkan verdi ki, hərbi gücümüzü daha da gücləndirək və ölkəmizin müdafiəsi üçün möhkəm ordu formalaşdıraq. Bu gün Azərbaycan Ordusu inkişaf etməkdə olan ölkələrin ordusundan geri qalmır. Bizim ən böyük problemimiz olan Dağlıq Qarabağ münaqişəsinin həlli ölkəmizin hərbi qüdrətinin artırılması və böyük iqtisadi inkişafın hesabına təmin olunacaqdır. Özlərini müxalifət adlandıran və xarici qüvvələrin təkidi ilə, lazım gələndə, “biz də varıq” deyə hərəkətə keçirlər. Müxalifətin təşkil etdiyi son mitinqlər bir daha onu sübut etdi ki, xarici qüvvələrin təsir göstərəcəyi normal bir qüvvə mövcud deyil. Hamıya məlum olduğu kimi, Azərbaycanın həyata keçirdiyi müstəqil xarici və daxili siyasət ölkəmizin gələcək inkişafına hesablanmış uğurlu siyasətdir. Hər bir YAP üzvünün ölkəmizin inkişafında xidmətləri vardır.

*Millət vəkili Tahir Mirkişili:*
***“25 il ərzində Azərbaycan həm siyasi, həm də iqtisadi və hərbi cəhətdən xeyli güclənib”***

- Keçən 25 il ərzində Azərbaycan həm siyasi, həm də iqtisadi və hərbi cəhətdən xeyli güclənib. Azərbaycan dünyada ən rəqabətqabiliyyətli 35 ölkədən biridir. Bu, qısa müddər ərzində əldə edilən çox böyük uğurdur. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kursla inkişaf edən Azərbaycan ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə böyük uğurlara nail olmaqdadır. Həm beynəlxalq arenada, həm də regionda ölkəmizin mövqeləri möhkəmlənir, Azərbaycana olan inam daha da artır. Təbii ki, bunu istəməyən qüvvələr də mövcuddur. Bu qüvvələr, həmişə olduğu kimi, öz nifaqlarını ölkə daxilində yaymaq və bundan nəticə əldə etmək istəyirlər. İstək isə bəllidir, Azərbaycanda siyasi sabitliyi pozmaq, ölkənin inkişafının qarşısını almaq, xalq-Prezident İlham Əliyev birliyini pozmaqdır. Məhz bu məqsədlə müxtəlif şəxslərdən istifadə edilir. Reallıqlar, bir daha onu deməyə əsas verir ki, onlar məqsədlərinə çata bilməyiblər. Tam əminliklə demək olar ki, bundan sonra da çirkin və məkrli məqsədlərinə nail ola bilməyəcəklər.



**GÜLYANƏ**



**MƏTLƏB**
*Metlebsalahov@mail.ru*

# “Reket jurnalistika”nın fironları...

**Deyəsən, “reket jurnalistika” ilə bağlı artıq ikinci dəfədir yazıram. İndi yaman dəbə minib bu barədə yazmaq. Sanki Xristofor Kolumb ikinci dəfə Amerika kəşf edib. Hamı yaxşı xatırlayır ki, müstəqil mətbuat yaranandan bəri hər zaman “reket jurnalistika” məsələsi aktual olub. Amma vaxt olub çox irəli çıxıblar “reket jurnalistlər”, vaxtlar da olub ki, əsl partizanlar kimi geriyə çəkilib pusqu qurublar. Vəziyyətə və situasiyaya uyğun hərəkət ediblər.**

Amma fakt odur ki bunlar həmişə “iş başında” olublar, mediada əsl fironluq ediblər. Mətbuatda daha çox kriminal xof yaradan “reket jurnalistika” adlı “media xərçəngi” əlini-qolunu sallayıb dolaşıb indiyə kimi. Əlahəzrət fakt belədir. İstəsək də, istəməsək də.

A kişilər, guya neçə illərdir ki, əxlaq və mənəviyyatını bakirəliyi kimi ayaq altına atan, ərinə min cür rəzilliklə xəyanət edib, halal ailə namusuna, ər çörəyinə təpik atan, əvəzində “əzabkeş qadın” cildinə girib yalançı KİV vəsiqəsini cibinə qoyan, onun-bunun qollarında dolaşan əxlaqsız qadınlar, “jurnalist” sifətinə bürünüb mətbuatda at oynatmırlarmı? Oynadırlar! Özü də lap möhkəm.

Əsl peşəkar jurnalistika ilə məşğul olan, qələmi ilə tanınan və yüzlərlə oxucunun hər gün yeni yazılarını qəzet səhifələrində, elektron KİV-lərdə axtardığı qələm sahibləri aylıq məvaciblə birtəhər ailəsini dolandırmağa çalışırsa, əvəzində bu “reket jurnalistlər” bahalı “CİP”lərdə, “LEXSUS”larda gəzir, villalarda yaşayır, əlləri pulla “oynayırlar”. Hələ bu bir yana, normal jurnalistin illərlə nail ola bilmədiyi məqsədlərə, bunlar bircə zənglə nail olurlar. Bu, gerçəkdən əsl faciəli durumdur mətbuat üçün.

Yaradıcı təfəkkürü, mədəniyyəti və ziyalılığı bir tərəfə qoyuram, adicə iki kəlmə cümləni latın qrafikası ilə ard-arda yaza bilməyən, beyin hüceyrələrindən bir cümlə cəhənnəmə, iki-üç hərfi uyğun şəkildə sıraya düzməkdə cəhənnəm əzabı çəkən bu “əzabkeş qadın qrupu” neçə illərdir ki, peşəkar jurnalistikaya müsibətlər yaşatmırmı?-yaşadır! “Reket jurnalistika”nın “xaç ataları” həmişə öz məqsədinə çatmaq üçün bu cür qadın qruplarından məharətlə istifadə ediblər. Səbəb də artıq hamıya məlumdur, məncə...

Bu reket “jurnalistlər”, ildə iki-üç dəfə dərc olunan, əsasən də küçə səviyyəli cızma-qaraların, daha çox bölgələrdəki vəzifəli şəxslərin, onların ata-babalarının, qohum-əqrəbasının şəninə deyilən ət ürpədən təriflərin yer aldığı kağız parçalarının “vəsiqələrini” cibinə qoyub, ortalıqda fırlanıblar, daima “iş başında olublar”. Yüz dəfə təəssüf ki, yenə də belədir...

Bunların “yemi” də daha çox, işində min bir “ÇEPESİ” olan rüşvətxor və o rüşvətdən dolayı da çiyinlərində cinayət “əbası” ilə dolaşan adamlar olub. Əslində isə, mətbuata bulaşmış bu “media xərçəngi”, neçə illərdir ki, bizimlə yol gəlir. Yarı-gizli, yarı- aşkar. Bəlkə bu illər ərzində bu dərəcədə həyasız forma almayıb deyə gözə də görünməyib. Amma indi vəziyyət başqadır. İndi artıq o rüşvətxor “əbasında” dolaşanlar demək olar ki, ortada yoxdurlar. Niyə?

Çünki “ASAN Xidmət” sisteminin işə düşməsi ilə, illərin bürokrat icra əngəlləri də tarixin qəbiristanlığına gömüldü getdi.

Daha sadə vətəndaşlar rüşvətxor və bürokrat adamların qapılarının ağzında bir sənədə qol çəkdirmək üçün günlərlə, həftələrlə, hətta aylarla növbə gözləməli olmurlar. Daha kimsə, “görümbaxım” etmək üçün boğazından kəsib, hansısa rüşvətxorun “boğazını yağlamaq” lazım olmur.

Bu reket “jurnalistlərin” də əsl qazanc yeri idi süründürməçi, bürokrat sənəd-sünəd işləri ilə məşğul olub “rüşvət gölündə” kef çəkənlər. Elədikləri cinayətlərə, aldıqları rüşvətə görə dili gödək olan və əməllərinin ifşa olunmasını istəməyən rüşvətxor və bürokrat adamlar, onları hədələyən və pul tələb edən reket jurnalistlərin dostu olublar həmişə. Həm də bu “dostluq”, ona görə olub ki, həmin rüşvətxorlar elədikləri cinayətlərin dil-dodağa düşməməsi üçün bu “reket jurnalistlərin” hər dediklərini artıqlaması ilə yerinə yetiriblər.

İndi necə etmək lazımdır ki, bunların kökünü mətbuatdan birdəfəlik kəsib ataq? İlk növbədə, yazılı mətbuatla bağlı ciddi qərarlara ehtiyac var. Çünki bunların əsas ayaq açdığı məkan yazılı mətbuatdır. Onların və bir çox onların “davamçıları” olan yalançı “jurnalistlərin” ürəklərinin başında gəzdirdikləri və “çörək ağacı” kimi baxdıqları “qəzetləri” ortadan qaldırmaq lazımdır. Məncə, biz günü bu gün bunun qarşısını almasaq, onları mətbuatdan əsl xərçəng yuvası kimi söküb atmasaq, onda mətbuatın “fatihəsi” barədə danışmalı olacağıq...

# Yeni Azərbaycan Partiyası xalqın partiyasıdır



***Azərbaycanda böyük uğurlara, nailiyyətlərə imza atan, xalqa, dövlətə xeyirli fəaliyyəti ilə Cənubi Qafqazın lider partiyası olan Yeni Azərbaycan Partiyası bu gün böyük qürurla 25 illik yubileyini qeyd edir. Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında meydana gələn YAP - ın yaranma tarixinə nəzər salsaq, göz önündə o zamankı ağır və məşəqqətli günlər canlanar. Məlum faktdır ki, Azərbaycan 1991-ci ilin oktyabrında dövlət müstəqilliyini yenidən bərpa etsə də, çox ciddi problemlər və çətinliklərlə üzləşmişdir.***

Müstəqilliyin ilk illərində xalqımızın başına gələn ağır bəlaların, o cümlədən, torpaqlarımızın Ermənistan tərəfindən işğalı, hətta dövlət müstəqilliyinin uçurum həddinə çatdırılması o vaxt hakimiyyətdə olan səriştəsiz rəhbərlərin, AXC-Müsavat başçılarının ölkənin, xalqın taleyinə biganəliyi və səriştəsiz fəaliyyətlərinin məntiqi nəticəsi idi. Xalq belə vəziyyətdən yeganə çıxış yolunu Ulu Öndər Heydər Əliyevi hakimiyyətə dəvət etməkdə gördü. Azərbaycanın mütərəqqi fikirli ziyalıları 1992-ci ilin iyun ayında yeni siyasi mübarizə yolu seçərək, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə yeni partiya yaratmaq qərarına gəldilər. Həmin ziyalılar oktyabr ayının 16-da "Səs" qəzeti vasitəsi ilə Ulu Öndər Heydər Əliyevə Yeni Azərbaycan Partiyasının yaradılması xahişi ilə müraciət etdilər. Oktyabrın 24-də Ulu Öndərin ziyalıların müraciətinə verdiyi müsbət cavab isə Heydər Əliyevin yaranmış vəziyyətdə böyük məsuliyyətin altına girməkdən çəkinməyən, cəsarətli və qətiyyətli lider olduğunu bir daha təsdiqlədi. Cavab məktubunda ziyalıların haqlı narahatlığını və həyəcanını bölüşən Dahi Öndər Heydər Əliyev yaranmış vəziyyətdən çıxış yollarını da böyük müdriklik və uzaqgörənliklə göstərirdi. Ulu Öndər Heydər Əliyev xalqın müraciətini qəbul etsə də, Onun Bakıya gəlməsinə o zamankı hakimiyyət manеələr yaradırdı. Bu baxımdan, partiyanı yaratmaq istəyən 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək, partiyanın təsis konfransını orada keçirməyə nail oldu.

## Azərbaycanda yeni mərhələnin əsasının qoyulduğu tarixi gün

Azərbaycanın bütün regionlarından seçilmiş nümayəndələrin təmsil olunduğu konfrans 1992-ci il noyabrın 21-də Naxçıvanda Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə keçirildi. Təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsini qəbul etdi. Konfransda Dahi Öndər Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Habelə partiyanın Siyasi Şurası, İdarə Heyəti və Sədrin müavinləri seçildi. Beləliklə, müstəqil Azərbaycan tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı. Həmin dövrü xatırlayan Prezident İlham Əliyev qeyd etmişdi ki, 1992-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılması tarixi hadisə idi. Çünki hamımız yaxşı xatırlayırıq ki, müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçmişdir: "O vaxtkı iqtidar ölkəni uçuruma aparırdı. Səriştəsiz, bacarıqsız, biliksiz insanlar, demək olar ki, Azərbaycanın dövlət müstəqilliyinə böyük zərbə vurmuşdular. Ona görə də, Heydər Əliyevin ətrafında birləşən insanlar, ilk növbədə, çox böyük cəsarət göstərmişdilər. Çünki o vaxtkı iqtidar imkan verMədi ki, partiyanın təsis qurultayı Bakıda keçirilsin. Digər tərəfdən, onlarda olan Vətən sevgisi onların bu hərəkətlərini şərtləndirdi. Ulu Öndər Heydər Əliyev fenomeninin siyasi iradəsi, düşüncəsinin dinamizmi, dünyada gedən prosesləri anlamaq, təhlil edib modelləşdirmək və siyasi davranışın ən əlverişli sxemlərini reallaşdırmaq qabiliyyəti 1993-cü ilin iyunundan etibarən Azərbaycanı xaos və anarxiya mühitindən, vətəndaş müharibəsi təhlükəsindən xilas edib, sabit inkişaf yoluna çıxarmışdır. Böyük strateq iqtisadi və hüquqi islahatların paralelliyini təmin etməklə, məhz bu prinsipə əsaslanmışdır ki, hüquqi dövlət insanların birgə fəaliyyətinin təşkili və tənzimlənməsinin mühüm amili, onların qarşılıqlı münasibətlərinin qaydaya salınmasının, cəmiyyətdə nizam-intizamın və sabitliyin təmini vasitəsidir. Siyasi liderin gücü və qüdrəti onun elan etdiyi məqsəd və vəzifələrin, ideoloji prinsiplərin cəlbediciliyi ilə deyil, ilk növbədə, qarşıya qoyduğu vəzifələri real həyatda tətbiq imkanları ilə ölçülür. Ulu Öndər Heydər Əliyev də təcrübəli dövlət xadimi və hakimiyyət ustadı olaraq Azərbaycan xalqının milli mentaliteti və dünyagörüşü ilə uzlaşan, reallığa adekvat olan milli inkişaf strategiyası seçmiş, iqtisadi modernləşməyə və siyasi liberallaşmaya xidmət edən çoxşaxəli islahatlar həyata keçirmişdir. Həmin dövrdə Qərbin aparıcı şirkətləri müharibə şəraitində, eləcə də, iqtisadi tənəzzül mərhələsini yaşayan Azərbaycana investisiyaların yatırılmasına tərəddüd edir və bunu riskli sayırdılar. Belə bir şəraitdə "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmaq, Qərb şirkətlərini sərmayə qoyuluşlarının etibarlılığına inandırmaq son dərəcə çətin idi. Bu istiqamətdə gərgin danışıqların uğurla yekunlaşması isə, məhz Ulu Öndərin şəxsi liderlik keyfiyyətləri, sözünə bütövlüyü, biznes və siyasət etikasına sadiqliyi ilə şərtlənirdi.

## YAP tarixi vəzifəni uğurla yerinə yetirdi

YAP tarixi bir vəzifəni, missiyanı yerinə yetirmək zərurətindən meydana gəlmişdir. Yəni Ulu Öndər Heydər Əliyevin belə bir siyasi təşkilatı yaratması həmin dövrün, zamanın tələbi, eləcə də, xalqın istəyi idi. Zaman təsdiq etdi ki, məhz Ümummilli Lider Heydər Əliyevin yaratdığı YAP qarşıda duran tarixi vəzifəni yerinə yetirməyə qadir olan bir siyasi təşkilat kimi özünü göstərdi. YAP yarandıqdan sonra ümummilli vəzifələrin həyata keçirilməsi üçün ciddi səylər ortaya qoyuldu. Yarandıqdan cəmi 6 ay sonra iqtidara gələn YAP xalqı öz ətrafında birləşdirərək, milli müstəqilliyimizin dönməzliyini təmin etdi, Azərbaycanın sosial-iqtisadi inkişaf modelini müəyyənləşdirdi, ilk dəfə olaraq, xalqımızın müstəqil dövlət olaraq Konstitusiyası qəbul edildi, ictimai mülkiyyətdən liberal iqtisadiyyata keçid həyata keçirildi. Bu uğurların davamı isə Ulu Öndər Heydər Əliyevin ən layiqli varisi Cənab İlham Əliyevin 2003-cü ilin 15 oktyabrında xalqın mütləq əksəriyyətinin etimadını qazanaraq, ölkə Prezidenti seçilməsi oldu. 2005-ci ilin mart ayında isə YAP-ın III qurultayı keçirildi. Qurultayda təşkilati məsələlərə baxıldı və Azərbaycan Prezidenti, YAP Sədrinin birinci müavini Cənab İlham Əliyev partiyanın Sədri seçildi. Beləliklə, Cənab İlham Əliyevin YAP-ın Sədri seçilməsi ilə partiyanın həyatında yeni mərhələ başladı. Cənab İlham Əliyevin YAP-ın Sədri seçilməsindən sonra kəmiyyət və keyfiyyət baxımından partiyada əhəmiyyətli dərəcədə dəyişikliklər müşahidə olundu. Əgər YAP-ın 2001-ci ildə keçirilmiş II qurultayı zamanı partiya üzvlərinin sayı 230 min nəfər idisə, III qurultaya qədər bu göstərici 360 min nəfərə yüksəlmişdi. Hazırda isə partiyanın üzvlərinin sayı 700 minə yaxındır. Bu gün YAP Prezident İlham Əliyevin rəhbərliyi ilə müəyyən olunmuş fundamental prinsiplərə söykənərək yeni və ümummilli vəzifələri həyata keçirməkdədir.

## Uğurlara aparan yol

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, demokratiya, milli tərəqqi və dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. Ulu Öndər Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur. Bu uğurlarda Ulu Öndərin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının xidmətləri böyükdür. Partiyanın xalqı öz ətrafında sıx birləşdirən lideri kimi, bütün üzvləri də milli məfkurənin, təfəkkürün formalaşması, suverenliyin əbədiliyi naminə qətiyyət göstərdi. Ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tarixi fikrində Dahi Öndərin xalqa və dövlətə əsasla-

# Yeni Azərbaycan Partiyası xalqın partiyasıdır






nan siyasəti barədə demişdir: "Bu gün biz inkişaf dövrünü yaşayırıq... Heydər Əliyev siyasəti yaşayır və davam etdirilir. Ulu Öndər tərəfindən qoyulmuş siyasi xətt dəyişməz olaraq qalır və bu, Azərbaycanı müasir dövlətə çevirir. Müasir, güclü iqtisadiyyata malik olan, əməkdaşlığa hazır olan və öz mövqelərini möhkəmləndirən ölkəyə çevirir. Bizim işimiz ondan ibarət olmalıdır ki, hər bir sahədə bu inkişafı daha da gücləndirək, iqtisadi islahatların, siyasi islahatların aparılmasına daha da yaxından kömək göstərək". Dövlət başçısı həmin nitqində bu gerçəkliyi də diqqətə çatdırmışdır ki, ölkəmizdə ictimai-siyasi vəziyyət çox müsbətdir. Xalqla iqtidar arasında birlik, inam var, həyata keçirilən siyasət və partiyanın xətti Azərbaycan xalqı tərəfindən dəstəklənir. Son 9 ildə ölkəmizin sosial-iqtisadi, siyasi, demokratik islahatlar və xarici siyasət sahəsində qazandığı uğurlara qısaca diqqət yetirsək, həyata keçirilən siyasətin konkret işlərdən ibarət olduğu aydın görünər.

Bu gün Azərbaycan beynəlxalq əhəmiyyətli layihələrin təşəbbüskarı, iştirakçısı və müəllifidir. Eyni zamanda, ölkəmiz təşəbbüsləri gerçəkləşdirən ölkə kimi tanınır və nüfuz qazanır. 2008-ci ilin avqustunda keçirilən Yeni Azərbaycan Partiyasının IV qurultayında təşkilatın keçdiyi yola nəzər salan Prezident İlham Əliyevin vurğuladığı kimi, biz dünya birliyinin önəmli üzvünə çevrilmişik və Azərbaycanın iştirakı olmadan bölgədə heç bir proses mümkün deyil. Son illərdə Azərbaycanda ümumi daxili məhsulun 3 dəfə artması bu inkişafın və tərəqqinin məntiqi nəticəsidir. On ildə dövlət büdcəsinin 20 dəfə artaraq 25 milyard, strateji valyuta ehtiyatlarının 45 milyard dollara çatdırılması, yoxsulluğun 49 faizdən 7 faizə, işsizlik səviyyəsinin 5,3 faizə endirilməsi də düşünülmüş siyasətin, aparılan islahatların və xalqla iqtidar birliyinin təntənəsidir. Neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində beynəlxalq əhəmiyyətli layihələrin təşəbbüscüsünə çevrilən və onları gerçəkləşdirən, çoxşaxəli iqtisadiyyatı ilə bölgədə liderlik edən Azərbaycanın Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərindən, Bakı-Tbilisi-Qars dəmir yolundan sonra Türkiyə ilə birgə təşəbbüsü olan TANAP kimi layihələri reallaşdırmaq əzmi davamlı inkişafın göstəricisidir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, bu layihələr olmasaydı, bu gün hər hansı bir "Cənub Dəhlizi"ndən söhbət gedə bilməz, Avropanın enerji təhlükəsizliyi məsələləri tamamilə başqa istiqamətdə həll olunardı: "Bu gün əldə edilmiş uğurlar əsasında gələcəyə baxırıq. O gələcəyə ki, qarşımızda yeni imkanlar, yeni üfüqlər açılır ".

Söz yox ki, uğurlar bundan sonrada davam etdiriləcək. Çünki Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət iqtisadi uğura, sosial rifaha, siyasi sabitliyə və demokratik tərəqqiyə söykənir. Bu baxımdan, əminliklə demək olar ki, ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə xalqımız və dövlətimiz hələ çox uğurlara, nailiyyətlərə imza atacaq və qarşıya qoyulan vəzifələri yerinə yetirəcək.

**İ.ƏLİYEV**



# YAP-ın 25 illik yubileyinə həsr olunan intellektual yarışın qalibləri mükafatlandırılıb




Gəncə şəhər icra hakimiyyəti və Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının birgə təşkilatçılığı ilə partiyanın 25 illik yubileyinə həsr olunan intellektual yarışın mükafatlandırma mərasimi keçirilib.

Tədbirdən öncə, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev çıxış edərək YAP-ın 25 illik fəaliyyəti dövründə xalqımızın taleyüklü problemlərinin həllində müstəsna xidmətlərindən danışıb. Ulu Öndərin müəyyənləşdirdiyi siyasi kursa sadiq qalan ölkə başçısı Cənab İlham Əliyevin rəhbərliyi altında partiyanın gələcəyə doğru inamla irəlilədiyini diqqətə çatdırıb.

Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırıb və Azərbaycan regionun lider dövlətinə çevrilib. Ölkəmizin iqtisadi cəhətdən qüdrətlənməsi əhalinin sosial şəraitinin yaxşılaşmasına səbəb olub. Bu sahədə işlərin məntiqi davamı olaraq, digər bölgələrdə olduğu kimi, Gəncədə də abadlıq-quruculuq işləri aparılır və böyük layihələr həyata keçirilir. Gəncə Dövlət Universitetinin prorektoru, millət vəkili Pərvin Kərimzadə Gəncədə gənclər üçün yaradılan şərait və həyata keçirilən layihələr haqqında geniş məlumat verib. Həmçinin, qeyd edib ki, ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının sıralarında birləşən üzvlər arasında üstünlüyü gənclərin təşkil etməsi də, onlara olan diqqət və qayğıdan qaynaqlanır. Gənclərin partiyaya axını onların Heydər Əliyev ideyalarına sədaqətlərini, Prezident İlham Əliyevin siyasətinə inamlarını ifadə etməklə yanaşı, bir daha bu reallığı da təsdiqləyir ki, onlar YAP-ın sıralarına qoşulmaqla öz potensiallarından səmərəli istifadə etmək, dövlətə və dövlətçiliyə xidmət etmək üçün böyük meydan görürlər. Sonda qalib komandalar və fəal gənclər Fəxri Fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıb, sonda xatirə şəkli çəkilib.

**Rövşən NURƏDDİNOĞLU**

# YAP 25 il ərzində şərəfli tarixi yol keçib

*Yeni Azərbaycan Partiyasının Zərdab rayon təşkilatı partiyanın yaranmasının 25 illik yubileyi münasibəti ilə tədbir keçirib*




Dünən Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibətilə YAP Zərdab rayon təşkilatı tərəfindən yubiley tədbiri keçirilib. Əvvəlcə iştirakçılar Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri düzüb, Onun əziz xatirəsinə ehtiramlarını yad ediblər. Zərdab rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Azərbaycanın Dövlət Himni səslənib və YAP-ın tarixinə, Ümummilli Lider Heydər Əliyevin və partiyanın Sədri, Prezident İlham Əliyevin fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib və şəhər 1 saylı məktəb-liseyin şagirdlərinin ifasında Ulu Öndərin partiya və dövlətçilik fəaliyyətinə həsr olunmuş kompozisiya səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova Azərbaycan dövlətçiliyinin inkişafında YAP-ın xidmətlərindən danışıb: "Ulu Öndər Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirib və xalqımızın taleyində silinməz izlər qoyub. Bu izlərdən biri də Yeni Azərbaycan Partiyasıdır. Azərbaycan Prezidenti İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyası bizim qarşımızda xalqımıza, dövlətimizə sədaqətlə xidmət etmək, həyatda fəal olmaq və Azərbaycanın dövlət müstəqilliyinin qorunub-saxlanılmasında yaxından iştirak etmək kimi önəmli vəzifələr qoyur".

Tədbirdə Zərdab rayon icra hakimiyyətinin başçısı, YAP Zərdab rayon təşkilatı idarə heyətinin üzvü Lütvəli Babayev çıxış edərək, yubiley münasibəti ilə tədbir iştirakçılarını təbrik edib. Bildirib ki, YAP-ın yaranması müstəqillik tariximizdə yeni mərhələnin əsasını qoyub: "Zamanın tələbi ilə yaranmış, dünənin, bu günün və sabahın partiyası olan YAP 25 il ərzində şərəfli tarixi yol keçərək, müstəqil dövlətimizin möhkəmlənməsində xüsusi rol oynayıb. Bu yubiley münasibətilə bütün partiya üzvlərini, o cümlədən, YAP Zərdab rayon təşkilatının hər bir üzvünü, rayonumuzun bütün əhalisini təbrik edirəm".

Tədbirdə, həmçinin YAP Zərdab rayon təşkilatının yaradıcılarından Tahir Qasımov, İsrəfil Həmidov, Etibar Hacıyev, YAP Zərdab rayon təşkilatı gənclər birliyinin sədri Ələkbər Kərimov, YAP Zərdab rayon təşkilatı qadınlar şurasının sədr müavini Nailə Əliyeva, "Əməkdar müəllim", partiya fəalı, Zərdab şəhər 1 saylı məktəb - liseyin direktor müavini Şəhla Eminova və başqaları çıxış edərək, ötən 25 ildə əldə edilən uğurlar barədə danışıblar. Qeyd olunub ki, tarixi zərurətdən yaranan YAP ümumxalq partiyası kimi bütün proseslərdə öndə olub. Bildirilib ki, məhz xalq arasında yüksək nüfuza malik olmasının nəticəsidir ki, hazırda YAP sıralarında 700 mindən çox üzv cəmləşib. Bu gün Ulu Öndər Heydər Əliyev ideyaları ölkəmizdə uğurla həyata keçirilir. Cənab Prezidentimiz İlham Əliyevin Azərbaycanda həyata keçirdiyi dünya miqyaslı layihələr Ulu Öndər Heydər Əliyevin arzularının təzahürüdür.

Tədbirin sonunda ictimai-siyasi aktivliyi ilə seçilən bir qrup partiya üzvünə fəxri fərmanlar və hədiyyələr, YAP sıralarına yeni qoşulan şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

**R.RƏSULOV**

# "25 il Azərbaycan naminə"

*YAP Binəqədi rayon təşkilatı Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyinə həsr olunmuş tədbir keçirib*



YAP Binəqədi rayon təşkilatının təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Binəqədi rayon icra hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov, YAP Siyasi Şurasının üzvü Firdovsi Əliyev,



YAP Siyasi Şurasının üzvü, YAP Qaradağ rayon təşkilatının sədri Aydın Hüseynov, millət vəkilləri Kamaləddin Qafarov, Azay Quliyev, YAP Gənclər Birliyinin sədri Seymur Orucov, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov, "İki Sahil" qəzetinin baş redaktoru, YAP Siyasi Şurasının üzvü Vüqar Rəhimzadə və YAP-ın fəalları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri R.Göyüşov qonaqları salamlayaraq, 25 il bundan öncə Yeni Azərbaycan Partiyasının təsis edildiyi bu günlərdə Azərbaycanın ictimai-siyasi mənzərəsinə nəzər salıb; "Ölkədə xaos, hərc-mərclik hökm sürür, əhali arasında sabaha ümidsizlik və ruh düşkünlüyü yaranmışdı. Belə bir zamanda ölkə əhalisinin əksər hissəsinin son ümidi o zaman Naxçıvanda yaşayan Ulu Öndər Heydər Əliyevə dikilmişdi. Hər zaman olduğu kimi, bu dəfə də Ulu Öndər dövlətin ağır günündə xalqın təkidli çağırışlarına biganə qalmadı. Ulu Öndər ölkə ziyalılarının çağırışına səs verdi və Yeni Azərbaycan Partiyası yarandı. 1992-ci ildə müxalifətdə olan partiya 1993-cü ilin iyulunda hakimiyyətə gəldi. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyev, ilk növbədə, ölkədə hökm sürən xaos və anarxiyanın qarşısını alıb, vətəndaş qarşıdurmasını aradan qaldırdı."

Tədbirdə çıxış edən YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov YAP-ın yaradılmasının tarixi zərurət olduğunu bildirərək, tarixi hadisələrə diqqət çəkib. Birbaşa iştirakçısı olduğu və Ulu Öndər Heydər Əliyevlə birlikdə çalışdığı zamanlarda baş verən hadisələrdə xalqımızın və dövlətimizin son dərəcə ağır sınaqlarla üz-üzə qaldığını bildirib. Mövcud siyasi vəziyyətin dövlətçiliyimizə təhlükə yaratdığını və o zamankı hakimiyyətin səriştəsiz, xalqı uçuruma aparan yarıtmaz siyasətindən danışıb. Ulu Öndər Heydər Əliyevə olan təhlükələrdən və təzyiqlərdən danışıb. Dahi Şəxsiyyətlə bağlı olan xatirələrini dilə gətirən E.İbrahimov xalqın düşdüyü ağır və çətin vəziyyətdən çıxaracaq siyasi liderə ehtiyac olduğunu bildirib. Bu partiyanın yaradılması ilə bütün təhlükələrin aradan qaldırıldığını və Ümummilli Lider Heydər Əliyevin sonralar müəyyənləşdirdiyi uğurlu siyasi strategiya nəticəsində davamlı və məqsədyönlü inkişafa nail olunduğunu vurğulayıb.

Tədbirdə çıxış edən YAP Siyasi Şurasının üzvü Firdovsi Əliyev qeyd edib ki, bu gün ölkəmizdə əldə olunan inkişaf və tərəqqinin əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan siyasətin bariz nəticəsidir. YAP-ın fəaliyyətinin əsas qayəsini təşkil edən Dahi Öndər Heydər Əliyev və dövlətçilik ideologiyasına sədaqətindən bəhs edərək, bu uğurda partiyanın misilsiz və danılmaz xidmətləri olduğunu bildirib.

Tədbirdə çıxış edən millət vəkili Kamaləddin Qafarov 1990-cı illərin əvvəllərində Naxçıvanda baş verən tarixi hadisələrə diqqət yönəldərək, Ulu Öndər Heydər Əliyevin dövlətçiliyimizin daha da möhkəmləndirilməsi və inkişafı istiqamətində yorulmaz fəaliyyətindən danışıb. Ümummilli Liderə xalq sevgisindən, Dahi Şəxsiyyətə xalqın böyük inam və etimadından bəhs edib. O inam və etimadın bu gün də davam etdiyini və dövlət başçısı, YAP-ın Sədri İlham Əliyevin Ulu Öndərin ideyalarını layiqincə davam etdirdiyini vurğulayıb.

Tədbirdə çıxış edən Binəqədi rayon icra hakimiyyətinin başçısı Xaləddin İsgəndərov bildirib ki, YAP-ın yaradılması tariximizdə dərin izlər qoyub, çünki bu partiyanın yaradılması və uğurlu siyasi fəaliyyət göstərməsi ilə ölkəmiz xaos və hərc-mərclikdən xilas oldu, vətəndaş müharibəsinin qarşısı alındı, dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə qarşıya qalan Azərbaycan xilas olundu və ölkəmizə demokratik ənənələr gətirildi; "Bu gün də dövlətimizin keşiyində duran YAP-ın müstəqil Azərbaycanın siyasi tarixində misilsiz rolu var. Ötən müddət ərzində partiyamız dövlətimiz və cəmiyyətimizin inkişafına misilsiz və layiqli töhfələr verir. Bu gün YAP Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları əsasında gündən-günə inkişaf edir." X.İsgəndərov çıxışının sonunda bütün YAP üzvlərini partiyanın yaradılmasının 25 illik yubileyi münasibətilə təbrik edərək, onlara öz fəaliyyətlərində uğurlar arzulayıb. Tədbir çıxışlardan sonra Yeni Azərbaycan Partiyasının yaranmasına, Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinə, eləcə də, YAP Binəqədi rayon təşkilatı tərəfindən görülən işlərə həsr olunmuş videoçarxın nümayiş etdirilməsi ilə davam etdirilib.

Daha sonra tədbirdə Binəqədi rayonunun tam orta ümumtəhsil məktəblərinin şagirdləri arasında YAP-ın yaradılmasının 25 illiyi ilə əlaqədar keçirilən "25 il Azərbaycan naminə" adlı intellektual yarışında qalib gələn məktəblərin komanda kapitanları təltif edilib. YAP sıralarına yeni üzv qəbul edilən bir qrup gəncə partiya üzvlük vəsiqələri təqdim edilib. Partiyanın 25 illik yubileyi münasibətilə YAP Binəqədi rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalı Fəxri Fərmanla təltif edilib.

Tədbir rəsmi hissəsi bitdikdən sonra bədii hissə ilə davam etdirilib.

**ZÜMRÜD**

# Azərbaycanlı girovlara erməni mətbuatının qərəzli reaksiyası dünyanı aldatmaq cəhdidir

***Erməni girovluğunda olan Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi ilə bağlı bütün beynəlxalq təşkilatlara, o cümlədən, BMT-nin baş katibinə, Avropa Şurasının və ATƏT-in rəhbərlərinə, Beynəlxalq Qızıl Xaç Komitəsinin prezidentinə, insan hüquqları komissiyalarının sədrlərinə rəsmi müraciətlər göndərilibsə də, bu vaxta qədər heç bir nəticə hasil olmayıb. Nə girovların azad olunması, nə də günahsız insanlara qarşı zorakılıqla müşayiət olunan davranışlarına görə işğalçı Ermənistanın mühakiməsi təmin edilməyib. Çox təəssüf ki, hələ də beynəlxalq təşkilatların Azərbaycana qarşı biganəliyi bu məsələdə də özünü göstərir. Bu, bir daha onu göstərir ki, beynəlxalq təşkilatlar öz fəaliyyətlərini ədalətsiz yanaşmaları üzərində qurub, onların ayrı-ayrı xalqlar, dövlətlər və millətlər haqqında ssenariləri biri-birindən fərqli və müxtəlifdir. Əgər bu təşkilatlar insan hüquqlarının qorunması ilə məşğuldurlarsa, o zaman dinindən, dilindən, irqindən, milliyyətindən asılı olmayaraq, bütün insanlara eyni statusla yanaşmalı və problemlərin həllinə çalışmalıdırlar.***



D.Əsgərov və Ş.Quliyev guya Ermənistanın dövlət sərhədini "pozduqları" üçün, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsində, heç bir hüquqi əsası olmadan, uydurma məhkəmə tərəfindən mühakimə olunublar. Erməni silahlılarının həmin şəxsləri girov götürdükləri torpaqlar Ermənistan torpaqları deyil, Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarıdır. Həmin ərazi Azərbaycanın dövlət sərhədlərinin daxilində olan ərazidir. Bu torpaqlarda doğulub-böyümüş Dilqəm Əsgərov, Şahbaz Quliyev və Həsən Həsənov Ermənistanın işğalçı siyasətinin nəticəsində öz yurdundan zorla çıxardılmış Azərbaycan vətəndaşlarıdır. Kəlbəcər onların yurdudur və bu torpaqlarda onların ata-babalarının məzarı var. Öz torpaqlarında həlak olmuş ailə üzvlərinin qəbirlərini, yaşadıqları kəndi yenidən ziyarət etmək və görmək üçün gedən insanlar girov götürülüb. Hər hansı gizli bir planı və gizli bir niyyəti olmayan insanlar doğulduqları torpağı ziyarət etməyə gedərkən, ermənilər tərəfindən tutularaq, işğal olunmuş torpaqlarında girov olaraq saxlanılır.

Əllərində olan girovlardan birini, azərbaycanlı Həsən Həsənovu işgəncələrə məruz qoyaraq, vəhşicəsinə öldürdükləri üçün Ermənistan tərəfi beynəlxalq təşkilatlar tərəfindən heç bir mühakimə faktı ilə üzləşmədikləri səbəbdən, əməllərindən çəkinmək niyyətində deyillər. Elə buna görə də, digər girovlar da hazırda mənəvi və fiziki işgəncələrə məruz qalmaqdadırlar. İşgəncələr səbəbindən girovlara dəfələrlə tibbi müdaxilələr olunur, hətta ailə üzvləri, yaxınları belə Ermənistanın bu qanunsuz davranış, hüquq normalarına, insanlığa sığmayan hərəkətləri barədə çoxsaylı müraciətlər etsələr də, işğalçı və vandallar barədə heç bir ölçü götürülmür. Lakin Dilqəm Əsgərov və Şahbaz Quliyevin ailəsi və yaxınları onların qısa zamanda azad edilməsi üçün hələ də Avropa Şurasından bu istiqamətdə daha böyük səylər gözləyirlər. Cəzasız qalması səbəbindən azğınlaşmış, əməllərinə görə beynəlxalq təşkilalar tərəfindən təzyiqlərə, mükahimələrə məruz qalmamış, əksinə, ikili standartlar siyasəti fonunda daha da ruhlanmış separatçılar, hələ bəlli deyil ki, bundan sonar daha hansı hüquq pozuntularına və qeyri-insani əməllərə imza atacaqlar?!

Azərbaycan tərəfi uzun illərdir ki işğalçıların, daha dəqiq desək, Ermənistanın qanunsuz əməllərini, günahsız insanlara qarşı tətbiq etdiyi qanunsuz hərəkətləri, işgəncələrə məruz qalmışlar barədə faktlara əsaslanan məlumatları yayaraq, etinasız qalmamaları üçün dünya ictimaiyyətinin diqqətini bu məsələyə yönləndirməyə səsləyir. Dünya dövlətləri, beynəlxalq təşkilatlar, fəaliyyətləri insan haqlarının müdafiəsinə köklənmiş qurumlar Ermənistanın bu haqsızlıqlarına "dur" deməli, qanunsuz əməllərindən çəkindirməli və azərbaycanlı girovlar tez bir zamanda azad edilməlidirlər.

Müasir dünyada tolerantlıq və multikulturalizmə heç bir alternativ yoxdur və bu səbəbdən də, Avropa Şurasına üzv ölkələrdə bu məsələ daim nəzarət altında saxlanılmalıdır. Harada baş verməsindən asılı olmayaraq, mənfi meyillərin qarşısının alınması istiqamətində və irqçiliyə qarşı mübarizədə ümumi səylər gücləndirilməlidir. Avropada islamafobiyanın, antisemitizmin artması ciddi narahatlıq doğurmalı və buna qarşı AŞPA daha çox çalışmalar həyata keçirməli və mübarizə aparmalıdır.

ATƏT üzvü olan 57 ölkənin nümayəndələrinin, səfirlər, diplomatlar, beynəlxalq təşkilatların rəhbərləri, habelə, hüquq müdafiəçiləri və ictimai-siyasi fəalların iştirakı ilə Avstriyanın paytaxtı Vyana şəhərində ATƏT-in "Dezinformasiya, nifrət və radikalizmin qarşısının alınmasında medianın rolu" mövzusunda növbəti iclasında iştirak edən Azərbaycan Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri Əhməd Şahidov məruzə ilə çıxış edərək, Cənubi Qafqazdakı mövcud münaqişə və konfliktlərin aradan qaldırılmasında mətbuatın əhəmiyyətindən danışıb. Dağlıq Qarabağ münaqişəsi barədə söz açan, Ermənistanın işğalçı siyasəti barədə məlumat verən hüquq müdafiəçisinin erməni mətbuatı tərəfindən bu işğala dəstək verildiyini, öz dədə-baba torpaqlarını ziyarət etmək üçün Kəlbəcər rayonuna səfər edən mülki şəxslərin 4 ildir ki, erməni girovluğunda saxlanıldığını və Ermənistan mətbuatının buna haqq qazandıran təbliğat apardığını nəzərə çatdırması qurumun işğalçı ölkə qarşısında konkret tələblər qoymasını təmin edir. Azad mətbuatın və medianın rolunun dünyada sülh, barış və sabitliyin bərqərar olmasına xidmət etməli olduğunu vurğulayan Əhməd Şahidov ATƏT coğrafiyasındakı bəzi ölkələrin mətbuatının müharibə təbliğatı apardığını, yanlış informasiyalar istehsal etdiyini, nifrət toxumlarının dərinləşməsinə xidmət etdiyini təəssüflə qeyd edib və bu da, onu deməyə əsas verir ki, belə bir nüfuzlu qurum ya Ermənistan mətbuatının qanunsuz fəaliyyətinə göz yumur, ya da onu dəstəkləyir. Əks halda işğalçı dövlətin mətbuatında qeyri-etik və qəbul olunmayan fəaliyyətə bu vaxta kimi münasibət bildirilərdi və nəticədə, erməni mətbuatının bölgədə gərginliyin saxlanılması istiqamətində təbliğat aparmasının və yalan informasiyalar yaymasının qarşısı alınardı.

Azərbaycanlı mülki vətəndaşların 2014-cü ilin iyul ayında öz doğmalarının məzarlarını ziyarət edərkən erməni silahlı birləşmələri tərəfindən oğurlanaraq, girov götürülərək, saxta məhkəmə prosesi yolu ilə birinə 22 il, digərinə isə ömürlük həbs cəzası təyin etməsinə erməni mətuatının qərəzli reaksiyası, iki mülki, yaşlı insanı terrorçu kimi qələmə verməsi və yanlış məlumatlar istehsal etməsi bütün dünyanı aldatmaq cəhdindən başqa bir şey deyil. Bir hüquq müdafiəçisinin mülki şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı fəaliyyətini isə erməni mətbuatı "terrorçuların vəkili" kimi təqdim edirsə, bu, işğalçı ölkə mediasının yalan, iftira və şantaj metodikasından istifadə etdiyini sübut edir.

Məsələ burasındadır ki, nə ATƏT, nə də digər demokratik təşkilatlar üçün bu faktlar yenilik deyil və Ermənistanın hadisələri hər zaman təhrif etdiyi inkar edilə bilməz. Bütün dünya ölkələri və ictimaiyyət erməni anti-təbliğatının nə qədər sərhədsiz olduğunun fərqindədir. Hadisələrin necə cərəyan etdiyi də diqqət mərkəzindədir. Ermənipərəst qüvvələrin, lobbilərin fəaliyyəti, onların təsiri ilə ədalətsiz münasibət və ikili standart yanaşma da dünya ictimaiyyətinin, ələlxüsus, ATƏT kimi nüfuzlu bir təşkilatın diqqətindən kənarda qala bilməz.

Digər tərəfdən, bir nəfər Azərbaycan vətəndaşının konkret cinayət xarakterli əməlinə görə konstitusiyanın müvafiq maddəsi ilə həbsini siyasiləşdirərək, insan haqlarının müdafiyəçisi kimi özünü təqdim edən Avropa Şurası, onun baş katibi Yaqland niyə 4 ildir işgəncələr altında girov saxlanan Azərbaycan vətəndaşlarının azad olunması tələbi ilə çıxış etmir? Öz doğma yurd-yuvalarında, vətəndaşlığını daşıdığı dövlətin ərazisi daxilində qonşu dövlət və işğalçılar tərəfindən girov götürülən vətəndaşların hüququ yoxdur, yoxsa bu hadisə hüquq pozuntusu kimi qeydə alınmır? Yaxud konstitusiyanın müvafiq maddələri ilə təqsirli bilinərək, barəsində həbs qətimkan tədbiri seçilərək azadlıqdan məhrum olunan Azərbaycan vətəndaşının hüquqları işğalçılar tərəfindən 2014-cü ildən girov götürülüb, bu vaxta kimi işgəncələrlə saxlanılanların hüquqlarından daha çox pozula bilərmi? Bütün bunlar barədə düşünmək, müqaisə etmək belə olmaz və əlbəttə ki, girov saxlanılanların hüquqları, nəinki pozulur, hətta bu hüquqlar beynəlxalq hüquq normaları ilə birgə tapdalanır. Bu halda, yəni illərlə işgəncələrə məruz qalmış bir neçə girovun taleyinə etinasızlıq edən, bununla yanaşı, insan haqları və hüquqlarının müdafiəçisi kimi fəaliyyət sərgilədiyini iddia edən beynəlxalq təşkilatların ölkə daxilində bir məhbusun taleyini düşünməsi kimi canfəşanlıq göstərməsi absurddur. Eyni zamanda, artıq işğalçı dövlət kimi tanınmış, beynəlxalq hüquq normalarını bir-birinin ardınca pozmaqda olan Ermənistan kimi dövləti deyil, demokratik prinsplərə söykənən, beynəlxalq hüquq norma və prinsplərinə hörmətlə yanaşan Azərbaycanı qərəzli mövqe nümayiş etdirməklə hədəfə almağın özü ikili standart və fərqli yanaşma deməkdir.

İstər beynəlxalq təşkilatlar, istərsə də digər nüfuzlu ölkələr artıq birmənalı şəkildə, işğalçı rejimin fəaliyyətini qınamalı və ikili standart yanaşmalardan imtina etməklə Ermənistanı qanunsuz hərəkətlərdən çəkindirməlidir. İnsan haqlarının müdafiəçisi qismində fəaliyyət göstərən təşkilatlar işgəncələrə son qoymaq, girovları azad etmək üçün terrorçu Sarkisyan rejiminə "dur" deməlidir. Girovlar azad edilməli və insan hüquqları bərpa edilməlidir. Başda ATƏT olmaqla, bütün nüfuzlu təşkilatlar Ermənistanda girov saxlanan azərbaycanlıların azad edilməsini tələb etməklə, sözdə deyil, reallıqda demokratiyanın və insan azadlıqlarının bərpasını reallaşdırmalıdır. Təkcə bir neçə girov deyil, bütövlükdə, işğal olunmuş Azərbaycan torpaqları azad edilməyənə qədər, beynəlxalq təşkilatların nə demokratiyadan, nə insan hüquq və azadlıqlarından, nə də bu kimi ali prinsplərdən danışmağa haqqı yoxdur.

***İnam HACIYEV***

## Özbəkistanın tnews.uz portalı Qarakənd faciəsi barədə material yayıb

Özbəkistanın tnews.uz portalı 26 il əvvəl, 1991-ci il noyabrın 20-də Xocavənd rayonunun Qarakənd kəndinin üç kilometrliyində "Mİ-8" vertolyotunun vurulması haqqında rus dilində geniş material yayıb. AZƏRTAC xəbər verir ki, məqalədə vertolyotun erməni silahlı qruplaşması tərəfindən vurulduğu, sonralar onların bunu etiraf etmələri vurğulanır.

Qeyd olunub ki, vertolyotda Azərbaycanın yüksək səviyyəli tanınmış dövlət rəsmiləri, Rusiyadan və Qazaxıstandan olan müşahidəçilər, jurnalistlər olublar. Vertolyotda olan 22 nəfər, o cümlədən Azərbaycanın dövlət katibi Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, sabiq daxili işlər naziri Məhəmməd Əsədov, baş nazirin müavini Zülfü Hacıyev, deputatlar Vaqif Cəfərov və Vəli Məmmədov, Prezident Aparatının şöbə müdiri Osman Mirzəyev, Qazaxıstan daxili işlər nazirinin müavini Sanlal Serikov, televiziya jurnalisti Alı Mustafayev həlak olub. Bildirilir ki, faciənin səbəbləri hələ də məlum deyil. Faciəni sifariş edənlər və icraçılar da hələ ki, cəzalarını almayıblar və onların arasında keçmiş SSRİ-nin rəhbəri Mixail Qorbaçov da var. Materialda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında da məlumat verilir.

## Britaniya şirkətlərinin nümayəndə heyəti Azərbaycana gələcək

Britaniya şirkətlərinin nümayəndələri noyabrın 22-24-də Azərbaycana səfər edəcək. Böyük Britaniyanın Azərbaycandakı səfirliyindən AZƏRTAC-a verilən məlumata görə, səfər BP ilə SOCAR-ın birgə təşəbbüsü ilə başlanan Böyük Britaniya və Azərbaycan arasında Tərəfdaşlıq Proqramı çərçivəsində baş tutacaq. Tərəfdaşlıq Proqramı Böyük Britaniya və Azərbaycan şirkətlərinin uzunmüddətli əlaqələrinin formalaşdırılmasını təşviqi üçün nəzərdə tutulub. Səfər çərçivəsində Britaniya nümayəndə heyəti Bakıda neft-qaz sektorunda lider olan bir sıra Britaniya və Azərbaycan şirkətlərində olacaq. Həmçinin Bakı Ali Neft Məktəbində SOCAR, BP, "Total" və "ABB Showcase" ilə texniki sessiyalar keçiriləcək. Nümayəndə heyəti Böyük Britaniyada sürtkü materialları üzrə aparıcı istehsalçı və distribüter olan "Miller Oils" şirkəti noyabrın 23-də Bakıda yeni obyektlərini açacaq. "Millers Oils" Azərbaycan Milli Elmlər Akademiyası ilə əməkdaşlıq edir.

# Astara rayonunda Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibətilə tədbir keçirilib



Dünən Astara rayonunda Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları Ulu Öndərin rayon icra hakimiyyətinin inzibati binası qarşısındakı abidəsi önünə tər gül dəstələri düzərək Ümummilli Liderin əziz xatirəsini yad ediblər.



Astara rayon icra hakimiyyətinin akt zalında davam edən tədbiri giriş sözü ilə Astara rayon icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev açaraq Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının keçdiyi 25 illik tarixi yoldan, partiyanın hakim siyasi təşkilat kimi fəaliyyəti dövründə Azərbaycan dövlətinin daha da qüdrətlənməsi, sosial-iqtisadi, siyasi və mədəni həyatımızda əldə olunan misilsiz uğurlu nəticələrin bu gün partiyanın Sədri, Prezident İlham Əliyevin apardığı daxili və xarici siyasət nəticəsində yeni-yeni uğurlara yol açmasından danışıb.

YAP Astara rayon təşkilatının sədri Firudin Əhmədov çıxış edərək, bildirib ki, 25 il tarix baxımından qısa müddət olsa da, ötən illər Yeni Azərbaycan Partiyasının həyatında, müstəqil - suveren Azərbaycan dövlətinin qurulmasında, möhkəmlənməsində və dünya dövlətləri arasında özünə layiqli yer tutmasında uğurlu illər olmuşdur.

Çıxışlarda o da bildirilib ki, YAP təkcə bu günlə yox, həm də daha çox gələcəklə yaşayır. Ulu Öndər Heydər Əliyev Cənablarının müdrikcəsinə dediyi kimi, "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır". Partiyanın dünəni zəngin və şərəflidir. Partiyanın bu günü fəal quruculuq və xalqa xidmət qayğılarından ibarətdir. Biz indi gələcəyə xidmət edirik. Aydın proqramımız, güclü rəhbərimiz və partiyamızın Sədri İlham Əliyevin ətrafında sıx birləşərək, iri addımlarla irəliləyirik.

Tədbirdə YAP Astara rayon təşkilatı Ağsaqqallar Şurasının üzvləri Hamlet Əliyev və Sabir Fətullayev, YAP Astara rayon təşkilatı gənclər birliyinin üzvü İsmət Quliyev, YAP Astara rayon təşkilatı qadınlar şurasının üzvü Qızbəs Məmmədova, YAP Astara rayon təşkilatı idarə heyətinin üzvü Əlövsət Əliyev Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbacyan Partiyasının keçdiyi şərəfli yoldan, əldə etdiyi uğurlardan bəhs ediblər.

Tədbirin sonunda ictimai-siyasi aktivliyi ilə seçilən bir qrup partiya üzvünə fəxri fərman, qiymətli hədiyyələr və YAP sıralarına yeni qoşulan gənclərə partiya üzvlük vəsiqələri təqdim olunub.

**R.HÜSEYNOVA**

# İsmayıllıda "Hərəyə bir ağac əkək" kampaniyası çərçivəsində 600 fındıq tingi əkilib



Dünən Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatı İsmayıllı Meşə Mühafizəsi və Bərpası Müəssisəsi ilə birgə partiyanın yaranmasının 25 illik yubileyi münasibətilə "Hərəyə bir ağac əkək" kampaniyası çərçivəsində Qalınçaq meşəbəyliyinin 3 saylı dolayında-Topçu kəndi ərazisində 1 ha sahədə 600 findıq tingi əkilmişdir.

İsmayıllı rayonunda ağac əkməklə ekoloji balansın bərpasına, təbii mühitin qorunmasına kömək etmək, atmosferi oksigenlə zənginləşdirmək, insanların diqqətini yaşıllıqların qorunmasına yönəltmək istiqamətində rayon təşkilatının təşkilatçılığı ilə silsilə ağacəkmə kampaniyaları, iməciliklər keçirilir, rayonda yeni yaşıllıq zolaqlarının salınması, ekoloji mühitin sağlamlaşdırılması və rayonumuzun daha da gözəlləşməsinə yönəlmiş işlər daim nəzarətdə saxlanılır.

Ağacəkmə kampaniyasında RİH başçısının müavini, YAP rayon təşkilatının sədri Sevil Əhmədova, təşkilatın əməkdaşları, Yeni Azərbaycan Partiyasının fəalları, gənclər, Meşələrin Mühafizəsi və Bərpası Müəssisəsinin işçiləri, İsmayıllı Peşə Tədris Mərkəzinin, Topçu, Buynuz kənd tam orta məktəblərinin müəllim və şagirdləri iştirak ediblər.

**ZÜMRÜD**

# YAP Quba rayon təşkilatı "Hərəyə bir ağac əkək" kampaniyasına start verib



Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar "Hərəyə bir ağac əkək" kampaniyasına YAP Quba rayon təşkilatı tərəfindən start verilib. Bununla bağlı YAP Quba rayon təşkilatının idarə heyətinin iclasında 2 mərhələli tədbirlər planı təsdiq edilib.

Birinci mərhələ 2017-ci il noyabrın 21-dən dekabrın 15-dək, ikinci mərhələ 2018-ci il martın 1-dən martın 31-dək davam etdiriləcək. Tədbirlər planına əsasən, YAP Quba rayon təşkilatının 104 ilk partiya təşkilatı üzrə üzvlərin sayına görə 8000 min ağac əkilməsi nəzərdə tutulmuşdur. Bu tədbirlər planına uyğun olaraq Quba Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin yaxından iştirakı ilə kampaniyaya start verilmişdir. Belə ki, noyabrın 21-də Quba rayon icra hakimiyyəti, Quba Bələdiyyəsi ilk partiya təşkilatları tərəfindən ağacəkmə kampaniyası baş tutmuşdur.

Qeyd edək ki, Quba rayonunda "Hərəyə bir ağac əkək" kampaniyası üzrə tədbirlər planına uyğun olaraq davam etdiriləcək.

**NƏZAKƏT**

# "Yeni Azərbaycan Partiyası Heydər Əliyev ideyalarının daşıyıcısıdır"

*Bu mövzuda Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatında tədbir keçirilib*



Dünən Masallı şəhər Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibəti ilə "Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir" devizi altında "Yeni Azərbaycan Partiyası Heydər Əliyev ideyalarının daşıyıcısıdır" mövzusunda tədbir keçirilmişdir. Tədbir iştirakçıları, ilk öncə, rayonun mərkəzində ucaldılmış Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzmüşlər. Sonra tədbir Heydər Əliyev Mərkəzinin akt zalında davam etdirilmişdir. YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev tədbir iştirakçılarına Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibəti ilə təbriklərini çatdırdı.



YAP Masallı rayon təşkilatı idarə heyətinin üzvü, Prezident təqaüdçüsü Şirvan Əbilov tədbir iştirakçılarına Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibəti ilə təbriklərini çatdırdı və geniş məruzə ilə çıxış edərək, həmin çətin dövrlərdə partiyanın yaranma tarixindən, YAP-ın təsis konfransında çıxışından, dahi Heydər Əliyevlə şəxsi görüşlərindən danışdı.

Tədbirdə digər iştirak edənlər rayon Ziyalılar Cəmiyyətinin sədri Qardaş Fətullayev, Boradigah xəstəxana ərazi ilk partiya təşkilatının sədri Fizuli Fətullayev, Şatıroba məktəb ərazi ilk partiya təşkilatının sədri Ülviyyə Səfərova, gənc fəal Rəmzi Şahverdiyev çıxışlarında Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan söz açaraq, bildirdilər ki, tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası yarandığı ilk gündən müstəqilliyimizin qorunması, dövlətçiliyimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın inkişaf etdirilməsi, demokratiyanın bərqərar olması ilə bağlı əsas rolu öz üzərinə götürmüşdür. Məhz Heydər Əliyevin rəhbərliyi altında Yeni Azərbaycan Partiyasının yaranması Azərbaycanı və xalqımızı düşdüyü çətin vəziyyətdən xilas etdi. Ümummilli Liderin ideyaları ətrafında sıx birləşməklə, Möhtərəm Prezidentimizə, Yeni Azərbaycan Partiyasının Sədrinə arxa olmalıyıq. Cənab Prezident İlham Əliyevin dediyi kimi, Yeni Azərbaycan Partiyasının bayrağını həmişə uca tutmalıyıq.

Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyinə həsr olunmuş yubiley tədbirində Masallı rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynov çıxış edərək, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə təsis olunmuş partiyanın keçdiyi şərəfli yoldan, ötən 25 ildə qazanılmış uğurlardan, dövlətçiliyimizin qorunması və möhkəmlənməsində, ölkəmizin ictimai-siyasi və iqtisadi tərəqqisində xidmətlərindən danşdı.

Tədbirin sonunda partiya həyatında fəal iştirak edən bir qrup partiya üzvünə YAP rayon təşkilatının fəxri fərmanları və qiymətli hədiyyələr, partiya sıralarına yeni qəbul olunmuş gənclərə isə vəsiqələr təqdim olundu.

**RƏFİQƏ**

# İnsan hüquq və azadlıqlarının təsbiti, təmini və müdafiəsi konstitusiyaçılığın əsasıdır

***İnsan hüquqları müasir dünyanın ən aktual problemlərindən biridir. Cəmiyyət inkişaf etdikcə insanlar öz hüquqları uğrunda daha mütəşəkkil mübarizə aparmağa başladılar. 20-ci əsrin ortalarına kimi insan hüquqlarını hələ də bütün dünya ölkələri qəbul etmirdi. Bu yolda ilk addım BMT tərəfindən atıldı:1948-ci il aprelin 10-da BMT-nin Baş Assambleyası Ümumdünya İnsan Hüquqları Bəyannaməsini qəbul etdi. Bəyannamə preambula və 30 maddədən ibarət idi. Burada göstərilirdi ki, irqindən, dərisinin, rəngindən, cinsindən, dilindən, əqidəsindən, siyasi mənsubiyyətindən, milli və sosial mənşəyindən, əmlak vəziyyətindən və digər hallardan asılı olmayaraq, bəyannamədə göstərilən hüquqlar bütün insanlara aiddir. Bu bəyannamədən sonra, 1996-cı il dekabrın 16-da BMT "Mülki və Siyasi hüquqlar haqqında" və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" paktlar qəbul etdi ki, bunlar hal-hazırda insan hüquqlarına aid əsas sənədlər sayılır.***

Müasir dövrümüzdə insan hüquq və azadlıqlarına aid baxışlar vahid deyil. Belə ki, insan hüquqlarına aid, əsasən, iki nəzəriyyə mövcuddur. Bunlar relyativist və universalist nəzəriyyələrdir. Relyativistlərə görə, insan hüquqları, əsasən, Qərb mədəniyyətinin məhsuludur və bu huquqlar Asiya və Afrika ölkələrində təsdiq edilə bilməz. Onların fikrincə, Qərbdə insan hüququ kimi tanınan hər hansı bir norma digər mədəniyyətlərə malik ölkələrdə tanınmaya da bilər. Onlar bunu mədəniyyətlərin və dinlərin müxtəlifliyi və ölkələrin müxtəlif iqtisadi gücə malik olması ilə əlaqələndirir və belə hesab edirlər ki, bu hüquqlar universal deyil.

Universalist nəzəriyyənin tərəfdarları isə göstərirlər ki, insan hüquqları yalnız Qərb üçün deyil, həm də bütün bəşəriyyət üçün qəbul olunan normalardır. Onlar bildirirlər ki, mədəniyyətindən və dilindən asılı olmayaraq, azad yaşamaq, vicdan azadlığı, öz dininə etiqad etmək, işgəncəyə məruz qalmamaq, qanunsuz təqib olunmamaq, öz fikrini azad sürətdə ifadə etmək, dövlət idarəçiliyində iştirak etmək və digər hüquqlar istənilən cəmiyyətdə məqbul sayılır.

Müasir dövrümüzdə insan hüquqlarının təminatı səviyyəsi ölkələrdəki siyasi rejimlərin xarakterini müəyyən edən başlıca amillərdən biri kimi qəbul olunmuşdur. İnsan hüquqları dedikdə, elə hüquqlar başa düşülür ki, bu hüquqlar dövlətlə qarşılıqlı münasibətdə hər bir insanın fərdi azadlığa nail olmaqdan, cəmiyyətin təşkil olunmasında iştirak etməkdən ibarət olan əxlaqi və hüquqi aktlardır. İnsan hüquqlarından danışarkən, qeyd etmək lazımdır ki, insan hüquqları, əsasən, dövlət hakimiyyətinin məhdudlaşdırılması hesabına təmin olunur. Lakin dövlətlər heç də öz hakimiyyətlərini fərdin hüquqlarının xeyrinə məhdudlaşdırmaq istəmir.

Demokratik dövlətlərdə insan vətəndaş hüquq və azadlıqlarının başlıca təminatçısı məhkəmədir. Çünki məhkəmə heç bir başqa dövlət orqanından asılı olmayan və yalnız qanuna tabe olan müstəqil hakimiyyətdir. Digər tərəfdən hər bir dövlətin imicini onun insan hüquqlarına münasibəti, həmin dövlətdə insan hüquqlarının vəziyyəti müəyyən edir. Demokratiya və insan hüquqları bir-birilə qırılmaz sürətdə bağlıdır və biri digərini şərtləndirir. Yalnız cəmiyyətdə mövcud olan demokratik iqlim insan hüquqlarının qorunmasına real təminat verir.

Hüquqi-demokratik və vətəndaş cəmiyyətli dövlət quruculuğunda inamlı və qətiyyətli addımlarını atan müstəqil Azərbaycan Respublikası 18 oktyabr 1991-ci ildə qəbul etdiyi "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"dan irəli gələn müddəalar 1995-ci ildə qəbul olunmuş ilk Milli Konstitusiyamızın da başlıca qayəsini təşkil etdi.

Konstitusiyada insanların əsas hüquq və azadlıqlarının müdafiəsi əhəmiyyətli yer tutur. Orada vətəndaşların digər hüquqları ilə yanaşı, onların mülkü hüquqlarının, xüsusilə mülkiyyət hüququnun qorunmasına yüksək səviyyədə təminat verilir.

Yeni konstitusiyamız insan və vətəndaş azadlıqlarının, hüquqlarının təmin olunmasını dövlətin ali məqsədi elan etmiş, olkədə aparılan irimiqyaslı islahatlar üçün möhkəm qanunvericilik bazası yaratmağa inkişaf verib. Konstitusiyamızın 26-cı maddsəinə əsasən, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquq və azadlıqlarını müdafiə etmək hüququ vardır.

Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. İstisnasız olaraq hakimiyyətin bütün qollarına şamil edilən bu öhdəlik insan və vətəndaş hüquq və azadlıqlarına hörmət etmək, onları müdafiə etmək və dəstəkləmək, eləcə də, həyata keçirmək vəzifələrini ehtiva edir.



İnsan hüquqlarının təmin edilməsi ölkəmizdə gedən böyük demokratik proseslərin tərkib hissəsi kimi daim dövlətin diqqət mərkəzində olan məsələlərdən biridir.Bu hüquqlar gündəlik həyatımızda öz real təminatını almaqla yanaşı, həm də hüquqi normativ sənədlərdə öz əksini tapır. Ölkəmizdə hüquq və azadlıqların qorunması məqsədilə verilmiş Azərbaycan Respublikası Prezidentinin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında"1998-ci il 22 fevral tarixli Fərmanı da vardır. Bunu da qeyd etmək kifayətdir ki, konstitusiyamızın 158 maddəsindən 48-i insan hüquq və azadlıqlarına və onların təminatına həsr edilmişdir.

Azərbaycanda vətəndaşların hüquq və azadlıqlarının təmini sahəsində bir çox beynəlxalq prinsiplər qanuni qüvvəsini alıb.Yeni əsrin ilk illərindən Azərbaycan dövləti insan hüquqlarının qorunması, hüquq və azadlıqlarının təmin olunması sahəsində ardıcıl tədbirlər həyata keçirildi. Avropa Şurasına üzv qəbul olunduqdan sonra Azərbaycan "İnsan hüquqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına" qoşuldu. Bu zaman o, öz üzərinə milli qanunvericiliyin beynəlxalq Avropa standartlarına uyğun təkmilləşdirilməsi öhdəliyini götürdü.Bu istiqamətdə atılan addımlardan ən mühümü OMBUDSMAN təsisatının yaradılması idi.2001-ci il dekabrın 28-də Milli Məclis tərəfindən "Azərbaycan Respublikasının İnsan Hüquqları uzrə Müvəkkil haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu qəbul olundu. Bu gün ombudsman xidmətinin təsisi günün zəruri tələbatıdır. Belə ki, Ombudsman insan hüquqlarının müdafiəsinin beynəlxalq vasitələrdən istifadə edilməsi üçün ən təkmil hüquq və müdafiə strukturlarından biri sayılır. Bu institutun mövcudluğu ölkəmizin vahid dünya hüquq məkanına inteqrasiyası prosesində katalizator rolunu oynayır. Sonrakı illərdə də insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində islahatlar və tədbirlər davam etdirildi. Gələcəkdə də oxşar tədbirlər davam etdiriləcək. Çünki insan hüquqlarının müdafiəsi sisteminin varlığı, onun daim təkmilləşdirilməsindən və gücləndirilməsindən çox asılıdır.

İnsan hüquq və azadlıqlarının təsbiti, təmini və müdafiəsi konstitusiyaçılığın əsasıdır. Təsadüfi deyildir ki, konstitusiya kimi mühüm siyasi-hüquqi sənədin hazırlanmasında başlıca məqsəd insanın hüquq və azadlıqlarının bütün özbaşınalıqlarından və qəsdlərdən müdafiəsini təmin etmək olmuşdur. Yalnız sərbəst və azad insan cəmiyyəti üçün zəruri olan maddi və mənəvi nemətlərin yaradıcısı kimi çıxış edə bilər.

İnsan hüquqları mənəvi-siyasi imperativdir. Bu hüquqlar uğrunda aparılan mübarizə gedişində, o, hüquqi forma almış və ictimai inkişafın sonrakı gedişində konstitusiya hüququnun ən mühüm institutlarından birinə çevrilib. Müasir dövrdə isə, insan hüquq və azadlıqları, onların müdafiəsi və təminatı beynəlxalq hüququn da müstəqil institutuna çevrilib. Deməli, insan hüquq və azadlıqları, bu hüquqların müxtəlif vasitələrlə təmini və müdafiəsi ümumbəşəri bir problem kimi formalaşmışdır.

Nəhayət, belə bir nəticəyə gəlirik ki, bu gün artıq bütün bəşəriyyət başa düşmüşdür ki, insan hüquqları qorunmadıqca, təmin olunmadıqca və hər gün dünyanın müxtəlif yerlərində minlərlə insanın hüququ pozulduqca yer üzərində nə hüquqi, nə də demokratik dövlətlərin qurulmasından danışmaq olmaz. Buna görə də, bütün bəşəriyyət insan hüquqlarının təmin olunması üçün daha sıx birləşməlidir.

***İlkin Nəcəfzadə***
***Məqalə Ombudsmanın Beynəlxalq İnsan Hüquqları Günü münasibətilə keçirdiyi müsabiqə üçün təqdim edilir***

# Rusiya telekanalı Ermənistan hakimiyyətini belə ifşa etdi

*Veronika Kraşennikova: "Siz inanmazsınız, amma partiyanın rəhbərlərindən biri təsdiq etdi ki, bəli, biz ari irqik"*

**Noyabrın 19-da Rusiya Müdafiə Nazirliyinin rəsmi media orqanı olan "Zvezda" ("Zvezda") telekanalının "Proqnozı" ("Proqnozı"; tərcümədə "Proqnozlar"-red.) proqramının müəllifi və aparıcısı Veronika Kraşeninnikova Ermənistanın mövcud iqtidarını sərt şəkildə tənqid edib və işğalçı dövlətin faşist ideologiyasından fərqlənmədiyini ifadə edib.**

O, rəsmi Yerevanın bir neçə gün sonra Avropa İttifaqı ilə genişləndirilmiş tərəfdaşlıq haqqında sazişi imzalamaq istəyini Ukraynanın siyasi kursu ilə müqayisə edərək, deyib ki, Avrasiya İqtisadi İttifaqının və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü, Rusiyanın Cənubi Qafqazda əsas müttəfiqi olan Ermənistan indi də Avropa İttifaqına (Aİ) üzv olmağa hazırlaşır. Eləcə də müəllif daha sonra bu ölkənin iqtidarının faşizmi dəstəklədiyini açıq şəkildə deyib:

"Ukrayna kimi Ermənistan da Avropa İttifaqı ilə siyasi dialoqa girir, onlar bunu belə adlandırır. Sitat gətirirəm, bu dialoq xarici siyasətdə və təhlükəsizlik məsələlərində əməkdaşlığın səmərəliliyini artıracaq"-deyə qeyd edən rusiyalı jurnalistə görə, Aİ ilə assosiasiya Ermənistanın Ukraynanın eynisini etdiyi yeganə şey deyil: "Buna inanmaq çətindir, amma Yerevan da faşizmin qulluqçularını qəhrəmanlaşdırır. Belə ki, 2016-cı ilin may ayında Yerevanda Qaregin Njdeyə (Arakel Ter-Arutunyan (1886-1955) -red.) abidə ucaldıldı".

"Bu, ermənilərin "Bandera"sıdır (Stepan Bandera (1909-1959) Ukraynanın milliyyətçi siyasətçi olub - red.). Njde 1942-ci ilə III Reyxə Sovet Ermənistanının Almaniyanın koloniyasına çevrilməsi xahişi ilə müraciət edib" - Kraşennikova bildirib: "Məhz o, "SS"in erməni legionunu yaradıb və erməni hərbi əsirləri arasında "Kim Almaniya uğrunda ölürsə, Ermənistan uğrunda ölür", -deyə təbliğat aparıb. Bu abidə Böyük Vətən Müharibəsi illərində cəbhədə mərdliklə vuruşan erməni xalqının xatirəsinə böyük təhqirdir. 106 erməni Sovet İttifaqı Qəhrəmanı olub. Lakin Njde onun nasional-konservatizm ideologiya ilə hakim Respublika Partiyasının qəhrəmanıdır".

Onu da qeyd edək ki, V.Kraşeninnikova Ermənistanın hakim Respublika Pariyasının loqotipini nümunə göstərib. Onun sözlərinə görə, bu loqotip II Reyxin simvoluna bənzəyir: "Bu yaxınlarda mən Ermənistanın Respublika Partiyasının rəhbərliyi ilə görüşdüm"-deyə qeyd edən rusiyalı jurnalist əlavə edib ki, onun loqotip barədə sualına irqçi cavab verilib: "Siz inanmazsınız, amma partiyanın rəhbərlərindən biri təsdiq etdi ki, bəli, biz ari irqik. Görünür, biz Ermənistanın hakim dairələrinin bəzi nümayəndələri barədə çox şeyləri bilmirik... Onlar həqiqətənmi Ermənistanı Ukraynanın yolu ilə aparmağa çalışırlar?!"

**Rusiyanın yaxın vaxtlarda erməniləri daha çox ifşa edəcəyini bəri başdan proqnozlaşdırmaq olar**

Göründüyü kimi, artıq uzun illər Rusiyanın vassalına çevrilmiş Ermənistanın iç üzünü elə rusların özləri ifşa etməyə başlayıb. Bu isə, birlavasitə belə qənaətə gəlməyə əsas verir ki, ermənilər harada sərf edən siyasət varsa, orada öz çirkin niyyətlərini yeritməyə çalışırlar. Ancaq hazırda bu ölkənin Rusiya ilə münasibətlərinin heç də yaxşı səviyyədə olmaması işğalçı ölkənin qısa zamanda məhvə doğru sürüklənmə faktorunu daha da sürətləndirəcək.

Yeri gəlmişkən, onu da qeyd edək ki, Ermənistanın hakimiyyətinin ideallaşdırdığı faşist Qaregin Njde, həmçinin, hələ Qafqaz sovetləşməzdən əvvəl Dağlıq Qarabağda azərbaycanlıların yaşadığı kəndlərdə yüzlərlə soydaşımızın qətlə yetirilməsində şəxsən iştirak edib. Hətta bu erməni faşistinə abidə ucaldılarkən, Rusiya tərəfi bu ideyanı sərt şəkildə qınayıb və Ermənistanı faşizm ideoplogiyasına dəstək verməkdə suçlayıb. Bu baxımdan, həqiqət üzə çıxmağa başlayıb və Rusiyanın yaxın vaxtlarda erməniləri daha çox ifşa edəcəyini bəri başdan proqnozlaşdırmaq olar.

**R. RƏSULOV**

SİYASİ RAKURS

# Rusiyanın siyasi elitası hesab edir - Ermənistan Avropa İttifaqına görə böyük bədəl ödəyəcək!

*Aleksandr Proxonov: "Hazırda davam edən danışıqlar bizim intellektual elita tərəfindən xainlik kimi, erməni elitasının Rusiyaya qarşı xainliyi kimi qiymətləndirilə bilər"*

**"Ermənistanın Rusiyaya xəyanətləri hər zaman olub". Bu fikirləri tanınmış publisist, Rusiya Yazıçılar Birliyi katibliyinin üzvü, "Zavtra" qəzetinin baş redaktoru, Rusiya Federasiyası Müdafiə Nazirliyi yanında İctimai Şuranın sədr müavini, politoloq Aleksandr Proxonov Ermənistan Avropa İttifaqına assosiativ üzvlüyünə tərəf atacağı addımı şərh edərkən deyib.**



Belə ki, Ermənistan və Avropa İttifaqı (Aİ) rəhbərlərinin tərəflər arasında hərtərəfli və genişmiqyaslı sazişin imzalanmasına dair danışıqlardan söz açan politoloq qeyd edib ki, bu kimi faktlar Rusiyanı narahat etməyə bilməz. SİTAT: "Aİ bir çox hallarda Rusiya və Avropa münasibətlərdə konfrontasiya yaradan güc olaraq meydana çıxır. Məhz Aİ, onun neqativ və hətta pis fikirli rolu Donbasdakı qanlı münaqişəyə səbəb olub. Məhz Aİ-nin Ukraynanın siyasi-iqtisadi və mədəni həyatını özünə bağlamaq istəyi, son nəticədə bu dəhşətli qanlı böhranla nəticələndi. Biz Aİ-nin Belarus Respublikasına uzun müddət davam edən təzyiqini də unuda bilmərik. Biz Aİ-nin NATO-nun kölgəsi rolunu oynaması rolunu unuda bilmərik. Ona görə də, Birləşmiş Avropa, Aİ qismində daha bir oyunçunun Dağlıq Qarabağ bölgəsinə gəlməsi, bizim fikrimizcə, sabitliyi pozan amildir. Ona görə də, hazırda davam edən danışıqlar bizim intellektual elita tərəfindən xainlik kimi, erməni elitasının Rusiyaya qarşı xainliyi kimi qiymətləndirilə bilər".

**Rusiya Azərbaycanla sıx münasibətlərə kifayət qədər böyük əhəmiyyət verir**

Maraqli məqamlardan biri də budur ki, rusiyalı publisist-politoloq Ermənistanın xəyanətkar addımlarına şərh verərkən, Azərbaycanı hər zaman öz vədinə sadiq və qətiyyətli tərəfdaş kimi gördüyünü vurğulayıb. Misal üçün, Proxonov bəyan edib ki, Rusiya bu gün Azərbaycan dövlətinin formalaşmasına böyük simpatiya ilə yanaşır: "Biz Azərbaycanın böyük hərc-mərcliklərə qalib gəlməsinə, Azərbaycan dövlətinin humanizm, beynəlmiləl əsasında qurulmasına, burada rusofobiya tendensiyasının olmamasına görə çox şadıq. Biz həm də şadıq ki, rus dili və Azərbaycanda Rus İcması özünü depressiyada hiss etmir. Azərbaycan beynəlxalq arenada özünü və nüfuzunu hər dəfə daha aktiv formadan nümayiş etdirir.

**Rəsmi Bakının regional və daha böyük məcrada münasibətlər qurması mühüm olaraq qiymətləndirilir**

Yeri gəlmişkən, Azərbaycanın son illər nəhəng layihələrə imza atması, bütün qonşuları ilə, hətta regiondan kənar ölkələrlə münasibətlərini yüksək səviyyədə qurması diqqətdən kənarda qalmayıb. Bu baxımdan, rəsmi Bakının Türkiyə və İranla çox gözəl münasibətlərinin olduğunu deyən politoloq bildirib ki, belə bir məqamda Azərbaycanla Rusiyanın əhəmiyyətindən bəhs edib: "Azərbaycan Rusiya ilə bu ölkələrin münasibətləri pisləşəndə, bu münasibətlər bizim istədiyimizdən də aşağı sürətlə irəlilədikdə, olduqca əhəmiyyətli və faydalı ölkədir. Ona görə də, Qarabağda sülh məsələsi, Ermənistan və Azərbaycan arasında əlaqələr və münasibətlərin qurulması məsələsi bizim üçün prioritetdir".

Ümumiyyətlə, son vaxtlar Rusiyanın aparıcı media qurumları və mətbuatı Ermənistana qarşı ciddi ittihamlar qaldırmaqdadırlar və bu amilin səbəblərindən biri də işğalçı ölkənin Aİ-yə assosiativ üzv yazılması istiqamətində müsbət qərarlar verməsidir. Bu baxımdan, Ermənistan hakimiyyətinin mövcud qərarı Rusiya ictimai-siyasi dairələrində xəyanətkar addım olaraq qiymətləndirilməkdədir. Hətta ermənilərin buna görə çox böyük bədəl ödəyəcəklərini də istisna etmək olmaz.

**Rövşən NURƏDDİNOĞLU**

## İranın Ali Rəhbəri zəlzələ bölgəsində olub



İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Əli Xamenei zəlzələdən zərər çəkənlərlə görüşmək üçün Kirmanşaha səfər edib. AZƏRTAC xəbər verir ki, Ali Rəhbər zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində aparılan işlərlə tanış olub, yerli əhali ilə görüşərək onların problemlərini dinləyib. İranın Ali Rəhbəri bir daha ölkə ictimaiyyətinə səslənərək dövlət qurumları ilə yanaşı, hamının zəlzələdən zərər çəkənlərə kömək göstərməsinin zəruriliyini diqqətə çatdırıb. Dağıntıların aradan qaldırılması və yeni evlərin tikintisinin planı haqqında da Ali Rəhbərə məlumat verilib.

## Nigeriyada məscidə terror hücumu: 50 nəfər ölüb



Nigeriyanın şimal-şərqində yerləşən Mubi şəhərinin məscidində törədilən partlayış nəticəsində həlak olanların sayı 50 nəfərə çatıb, çox sayda yaralı var. AZƏRTAC France-Presse agentliyinə istinadla xəbər verir ki, bunu yerli polisin nümayəndəsi Osman Əbubəkir bildirib. Onun sözlərinə görə, hadisə nəticəsində yaralananlar yaxınlıqdakı xəstəxanalara çatdırılıb. Yaralılar barədə dəqiq məlumat olmasa da, ölənlərin sayının arta biləcəyi istisna edilmir. Xatırladaq ki, partlayış noyabrın 21-də sübh namazından sonra baş verib. Partlayıcı qurğunu təxminən 17 yaşlarında olan terrorçu- kamikadze işə salıb. Hələlik regionda fəaliyyət göstərən heç bir qruplaşma hadisənin məsuliyyətini üzərinə götürməyib.

## Hindistanda zavodun uçması nəticəsində azı 10 nəfər həlak olub




Hindistanda zavod binasının uçması nəticəsində azı 10 nəfər həyatını itirib, 25 nəfərin isə dağıntılar altında qaldığı ehtimal edilir. AZƏRTAC xəbər verir ki, IANS informasiya agentliyinin yaydığı məlumata görə, insident Pəncab ştatının Ludhiana şəhərində qeydə alınıb. Plastmas istehsalı ilə məşğul olan zavodun beşmərtəbəli binası yanğının ardından baş verən partlayışdan sonra uçub.

Partlayışın yanğınsöndürənlərin hadisə yerində alovla mübarizə apardığı vaxt baş verdiyi və nəticədə binanın uçduğu bildirilir. Həmin vaxt binada olan yerli administrasiya nümayəndələri də dağıntılar altında qalıb.

# Azərbaycan milli elitasının millətsevərlik ruhunda formalaşdırılmasında Ulu Öndər Heydər Əliyevin rolu

Ulu Öndər Heydər Əliyev hələ Sovet dövründə öz vətənini sevən milli elitanı formalaşdırdı. Bu elitaya aşağıdakılar daxil idi:

* siyasi elita;
* təhsil elitası;
* iqtisadi idarəçilik elitası;
* hüquq-mühafizə, dövlət təhlükəsizliyi elitası.

Heydər Əliyev milli elitanı:

* vətənpərvərlik ruhunda;
* ədalətli;
* mənəviyyatlı;
* halallıq;
* təmizlik, düzlük ruhunda tərbiyə edirdi.

Ulu Öndər Heydər Əliyev deyirdi: "İnsanların həmişə düz yolla, təmiz mənəviyyat yolu ilə getməsinə çalışmaq lazımdır. Mənəvi paklıq, saflıq həmişə insanları ucaldıbdır, həmişə insanlara hörmət gətiribdir. Dünyada hər şey halallıq istəyir, təmizlik, düzlük istəyir. Həqiqəti heç vaxt gizlətmək, həqiqətin üstünü basdırmaq olmaz".

Sonralar müstəqillik dövründə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda edənlərin qəhrəmanlığından dərs götürməyi tövsiyə edən Heydər Əliyev deyirdi: "Biz Vətən müharibəsi aparırıq! Vətən müharibəsinə isə hamı qoşulmalıdır. Vətən müharibəsi bütün xalqın, hər bir vətəndaşın öz şərəf və namusunu qorumaq üçün aparılan müharibədir. Ölkəmizin dünya miqyasında hörmətini qaldırmağa hamı çalışmalıdır. Özünü ciddi şəxs bilənlər ümummilli məsələlər barəsində düşünüb-barışmalıdırlar. Hər bir azərbaycanlı fəxr etməlidir ki, nəhayət, Azərbaycan xalqının dünya birliyinə daxil olan müstəqil dövləti vardır. Bu, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir".

Ulu Öndərin ciddi siyasi fəaliyyəti sayəsində Azərbaycanı bütün dövrlərdə siyasi-iqtisadi, mədəni və mənəvi inkişaf yolu ilə aparan milli kadrlar yarandı. AMEA-nın müxbir üzvü, professor Musa Qasımlı yazır: "Heydər Əliyev hakimiyyətə gəldikdən az sonra respublikanın siyasi rəhbərliyində birliyə çalışaraq buna məharətlə nail oldu. O, hakimiyyət strukturlarına əsasən, azərbaycanlıları yerləşdirərək, Azərbaycan elitasını birləşdirib respublikanı tərəqqiyə doğru aparmağa başladı. Hər yerdə, əsasən, azərbaycanlıları vəzifələrə çəkən Heydər Əliyev yerli xalqın nümayəndələrindən müxtəlif sahələr, xüsusən, gələcək dövlət müstəqilliyi üçün lazım olan peşəkar kadrları hazırlamaq istiqamətində səylər edirdi. Bununla bağlı olaraq, görkəmli ABŞ tarixçiləri T.Svyatoxovski və B.Kollinz yazırlar ki, Heydər Əliyev Azərbaycan Kommunist Partiyasının rəhbəri seçildikdən sonra respublikadakı iqtisadi tənəzzülün qarşısı alındı, alternativ sənaye sahələri yaradıldı və neft sənayesinə xüsusi diqqət yetirildi. O, respublikanın siyasi elitasını birləşdirdi. Bu elita, əsasən, azərbaycanlılardan ibarət idi. Həmin tarixçilər Heydər Əliyevin bu sahədəki fəaliyyətini təhlil edərək, daha sonra yazırlar ki, o, daim milli birliyə can atır, Azərbaycan elitasını birləşdirərək, azərbaycanlıları yüksək vəzifələrə gətirirdi.

Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycanın partiyasiyasi, qanunverici, icraedici və məhkəmə orqanları arasında, onların öz daxilində yekdillik hökm sürürdü. Bu orqanlar artıq kollektiv deyil, komanda olaraq işləyirdilər. Tələbkar olduğundan Heydər Əliyevlə işləmək çətin, ədalətli olduğundan, maraqlı ideyanı dərhal qəbul edib həyata keçirmək üçün göstəriş verdiyindən asan idi.

T.Svyatoxovski başqa bir əsərində yazır: "Heydər Əliyev nailiyyətinin ən aşkar mənbəyi Onun neft siyasətində idi. Lakin həmin siyasət, həm də yerliçiliyi həyata keçirirdi. Bu da yerli nomenklaturanın möhkəmləndirilməsi ilə nəticələndi. Heydər Əliyevin otuz beş nəfər əsas əməkdaş və tərəfdarlarının, demək olar ki, hamısı azərbaycanlı idi. Heydər Əliyev mühüm əhəmiyyətli boş vəzifə yerlərini doldurmaq üçün slavyan mənşəli namizədlərdən istifadə edilməsinə heç bir meyil göstərmirdi və bir qayda olaraq, rus millətindən olan ikinci katib Moskva tərəfindən təyin edilirdi". M.Qasımlı daha sonra yazır: "Heydər Əliyev Azərbaycan neftinin mərkəzə daşınmasında maraqlı olmadığından qeyri-neft sahələrinə başlıca diqqət yetirir, maliyyə vəsaiti ayırır, bununla da, respublikanın regionlarının inkişaf etdirilməsinə, yeni iş yerlərinin açılmasına, azərbaycanlıların həyat şəraitinin yaxşılaşdırılmasına, əhalinin demoqrafik inkişafına, rayonların və kəndlərin mədəni simasının dəyişdirilməsinə dair strateji niyyətlərini həyata keçirirdi. 70-ci illərdə Azərbaycanda pambıqçılığın və üzümçülüyün üstün inkişafının səbəblərindən biri də, məhz bu amillərlə bağlı idi".

ABŞ tədqiqatçısı Bernard A.Kukun redaktorluğu altında nəşr edilmiş ensiklopediyada göstərilir ki, Heydər Əliyev hakimiyyətə gələn kimi qeyri-neft sahələrinin inkişafına xüsusi diqqət yetirdi, iqtisadi idarəçilikdə azərbaycanlıların mövqelərini möhkəmləndirdi və iqtisadiyyata rəhbərliyi onların nəzarətinə keçirdi. Bütün Sovet dövründə azərbaycanlılar, ilk dəfə olaraq, Azərbaycanda, məhz Heydər Əliyevin hakimiyyəti illərində iqtisadi həyatda hökmran mövqe tutdular və onların özünə inamı gücləndi.

Heydər Əliyev Azərbaycanda dövlət təhlükəsizlik orqanlarının şəxsi heyətini azərbaycanlılaşdırdı. Ulu Öndərin bu siyasətini yüksək dəyərləndirən M.Qasımlı yazır: "O yaxşı başa düşürdü ki, azərbaycanlı ziyalıların xalqın inkişafına dair söylədikləri fikir və mülahizələr dövlət üçün heç bir qorxu törətməsə də, əslində, lazımlı olsa da, ölkədə hakim olan millətin nümayəndələrinin rəhbər vəzifələr tutduğu DTK tərəfindən millətçilik kimi qarşılanır və ona qarşı ən sərt tədbirlər tətbiq edilir. Bütün bunlar milli ruhlu adamların gözünü qorxudur, xalqın mənafeləri naminə düşünməkdən və fəaliyyət göstərməkdən uzaqlaşdırırdı. Ona görə də, Heydər Əliyev bu orqanda işləyən yüksək rütbəli azərbaycanlıların sayının artırılmasına çalışır və buna nail olurdu".

Məhz Heydər Əliyevin səyi nəticəsində vaxtilə müavin işləmiş Ziya Yusifzadə Azərbaycan DTK-ya sədr təyin edildi, Moskvanın Azərbaycan DTK-sı üzərində nəzarəti zəiflədi, millətsevər elitanın formalaşması üçün şərait yarandı.

M.Qasımlı Ulu Öndərin siyasi fəaliyyətini hərtərəfli təhlil edərək yazır: "Heydər Əliyev partiya sıralarında azərbaycanlıların xüsusi çəkisinin artırılmasına diqqət yetirir, buna uğurla nail olur, nəticədə isə, onları partiya, Sovet və təsərrüfat orqanlarında yerləşdirərək, idarəçilik təcrübəsi öyrədirdi. O, bu addımlarını elə bir zamanda atırdı ki, Sovet respublikalarında vəzifələrə, əsasən, ruslar gətirilir, ölkədə güclü ruslaşdırma siyasəti həyata keçirilirdi. Respublikada azərbaycanlı kommunistlərin sayının çox olması onların məsul vəzifələr tutmasına imkan verirdi. Sovet sistemi şəraitində vəzifə tutaraq, xalqa xidmət etməyin başlıca yolu Kommunist Partiyasına üzv olmaqdan keçirdi. Partiya üzvü olmayanların yüksək vəzifələr tutması mümkün deyildi. Çünki ölkədə nə ikinci bir partiya, nə də başqa bir siyasi təşkilat var idi. Buna görə də, Heydər Əliyev daha çox azərbaycanlının kommunist olmasına çalışırdı.

70-80-ci illərdə Azərbaycan rəhbərliyi, MK-da ideologiya sahəsinə başçılıq edənlər, DTK-nın azərbaycanlı rəhbərliyi respublikada rast gəlinən millətçilik meyillərini, antisovet təzahürləri Moskvanın ağır təzyiqlərinə baxmayaraq, mərkəzdən gizlətməyə çalışır və həmin şəxsləri ələ vermirdilər. Nəticədə, Azərbaycanın adı antisovet təzahürlərə həsr olunmuş sənədlərə və arayışlara düşmürdü.

Qeyd etmək lazımdır ki, Azərbaycanda millətçilik təzahürləri genişlənsə də, arayışda əksini tapmamışdı. Belə şəraitdə hakimiyyətdə oturaraq, millətin problemlərini Moskvanı qıcıqlandırmadan ustalıqla həll etmək böyük məharət tələb edirdi".

Sonda AMEA-nın müxbir üzvü, professor Musa Qasımlının Ulu Öndər Heydər Əliyev haqqında dediyi sözləri yada salmaq yerinə düşər: "O, (Heydər Əliyev - V.Ö.) özünün gərgin fəaliyyəti ilə azərbaycanlılar arasında milli birliyə, siyasi hakimiyyət daxilində yekdilliyə və xalqla hakimiyyət arasında uçurumun aradan qaldırılmasına uğurla nail oldu. Azərbaycanlıları yüksək dövlət, partiya və təsərrüfat strukturlarında vəzifələrə gətirmək üçün onların Kommunist Partiyası sıralarına daha çox daxil olmasına çalışırdı. Heydər Əliyev xüsusi xidmət orqanlarına azərbaycanlı kadrları yerləşdirməklə, onlara rütbələr verdirməklə, siyasi hakimiyyəti möhkəmləndirməklə, azərbaycanlı qadınları müxtəlif vəzifələrdə irəli çəkməklə, bu məqsədlərinə uğurla çatır, milli ruhu qaldırır, Azərbaycan ərazisində yaşayan bütün vətəndaşları vahid amal ətrafında birləşdirir, Sovet hakimiyyətinin əvvəlki illərində azərbaycanlıların qırılmış inamını bərpa edərək, onların vətənpərvərlik və ana torpaq sevgisini gücləndirirdi. Onun hakimiyyəti illərində azərbaycanlıların böyük əksəriyyəti vətən deyərkən Azərbaycanı, paytaxt deyərkən Bakını, rəhbər deyərkən Heydər Əliyevi nəzərdə tuturdu.

Heydər Əliyevin ən böyük tarixi xidmətlərindən biri Azərbaycan xalqının birliyinə, siyasi hakimiyyət daxilində yekdilliyə, hakimiyyətlə xalq arasında vəhdətə nail olması idi. Məlumdur ki, 1920-ci ilin aprelində Azərbaycan bir dövlət və xalq kimi bolşevik Rusiyası tərəfindən işğal olunduqdan sonra, yeridilən Sovet siyasəti onu xalqdan kütləyə, manqurta çevirməyə çalışır, bəzən buna nail də olurdu. Lakin bütün təzyiqlərə baxmayaraq, azərbaycanlılar SSRİ dağılanda bütöv bir xalq və millət olaraq imperiyadan ayrıldılar. Heydər Əliyev xalqa münasibətdə yaxın, isti, xeyirxah, məmurlara, məsul partiya və Sovet işçilərinə münasibətdə isə qayğıkeş olmaqla bərabər, mürəkkəb, sərt, soyuq və tələbkar idi. Bu isə digər sahələrdə onun millət naminə çalışmalarında uğur qazanmasına kömək edirdi. Bütün əvvəlki rəhbərlərin bacarmadığı işin öhdəsindən məharətlə gələn Heydər Əliyev Azərbaycan xalqını sıx birləşdirən qeyri-adi istedadlı siyasi, dövlət və partiya xadimi idi. Əslində, xalqı birləşdirməklə, o, azərbaycanlılar içərisində kommunist rəhbərdən daha çox milli lider olaraq qəbul edilirdi".

**Vahid ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 22 noyabr

## *Görmə qabiliyyətinin itməsinin gözlənilməyən səbəbləri açıqlanıb*



Nyu-Yorkda yerləşən Montefiore Tibb Mərkəzinin oftalmoloqları qadınların görmə qabiliyyətinin itirilməsi halları ilə daha çox (75 faiz halda) rastlaşdıqlarını bildirib və nəticəsi qlaukomaya gətirib çıxaran gözlənilməyən səbəbləri açıqlayıblar. Həkimlərin fikrincə, bu səbəblərdən biri ultrabənövşəyi şüalardır.

AZƏRTAC "Medikforum.ru" saytına istinadən xəbər verir ki, oftalmoloqlar gün eynəyindən bütün il ərzində istifadə etməyi məsləhət görürlər. Çünki birbaşa günəş şüaları gözün buynuz qişasına son dərəcə dağıdıcı təsir göstərir. Bununla yanaşı, alimlərin sözlərinə görə gözün tor qişasında ağrı reseptorları olmadığından gözün aldığı termik yanıqlar barədə güman da etmək olmaz.

İnsan yaşa dolduqca görmə qabiliyyətinin zəifləməsinin bir səbəbi də siqaretçəkmə ola bilər. Tədqiqatçılar qeyd edirlər ki, siqaret çəkənlər arasında makulanın yaşlanma degenerasiyasından əziyyət çəkənlər siqaret çəkməyənlərlə müqayisədə iki dəfə çoxdur. Görmə qabiliyyətinin itməsi ilə siqaretçəkmə arasında bağlılıq o qədər güclüdür ki, bunu siqaretçəkmə ilə ağciyərlərin xərçəngi arasında olan bağlılıqla müqayisə etmək olar.

Alimlərin fikrincə, kontakt linzalardan istifadə də risk amillərindən biridir. Bu vərdiş gözün patogen bakteriyalarla yoluxdurma ehtimalını sürətlə artırır, pozulmanı inkişaf etdirir və sonda korluğa gətirib çıxarır. Amerikalı oftalmoloqlar bildirirlər ki, bakteriyaları dezinfeksiyaedici məhlulların köməyi ilə öldürmək mümkün deyil, əgər üzgüçülük zamanı linzadan istifadə olunursa və ya onların konteynerləri axar su ilə yuyulursa, bu hallarda amöb keratiti (gözün buynuz təbəqəsinin iltihabı) ilə yoluxma riski bir neçə dəfə artır. Bundan başqa, dərman preparatları da görmə qabiliyyətinə və gözün müxtəlif hissələrinə əks-təsir göstərə bilər.

## *Bu insanlar FEYXOA yeməməlidir*

Feyxoa olduqca faydalı məhsuldur. Lakin bəzi xəstəliklər zamanı feyxoanın istehlakı insana ziyan vura bilər. Söhbət xüsusilə hipertireoz (və ya tireotoksikoz) xəstəliyindən gedir. Hipertireoz zamanı qalxanvari vəzinin hormonlarının ifrazı artır ki, bu da orqanizmin bir çox orqan və sistemlərinə mənfi təsir edir. Məntiqi sual yaranır - feyxoanın bu xəstəliyə nə aidiyyəti var?



Məsələ burasındadır ki, qalxanvari vəzinin hormonlarının istehsalı üçün yod lazımdır. Yod bu hormonların tərkibinə daxildir. Feyxoa isə yodla olduqca zəngindir. İnsanda hipertoreoz artıq varsa və onun qalxanvari vəzisi həddindən artıq aktivdirsə, yodla zəngin olan qidaların istehlakı qalxanvari vəzinin fəaliyyətini daha da aktivləşdirəcək ki, bu da xəstəliyin gedişatını ağırlaşdıra bilər. Qalxanvari vəzinin digər pozulması olan hipotireoz (hiper - çox, hipo - az deməkdir) zamanı qalxanvari vəzi əksinə zəif işləyir, öz hormonlarını lazım olandan daha az ifraz edir. Hipotireoz zamanı qalxanvari vəzinin fəaliyyətini əksinə aktivləşdirmək lazımdır və bu vəziyyətdə yodla zəngin olan qidalar və o cümlədən feyxoa faydalıdır.

## ELAN

30 dekabr 2017-ci il saat 10-00-da "Suraxanı Satış Bazası" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbəti illik yığıncağı keçiriləcəkdir.

Gündəlikdə duran məsələlər:

1. Səhmdar cəmiyyətinin 2016-cı ilin yekunları ilə bağlı maliyyə-təsərrüfat fəaliyyətinin hesabatı və cəmiyyətin 2016-cı il üzrə illik hesabatının təsdiqi, (nəzərinizə çatdırırıq ki, səhmdar cəmiyyət 2016-cı ildə fəaliyyət göstərməmişdir).
2. Təşkilati məsələ.
3. Digər məsələlər.

Müşahidə şurasının sədri: Dadaşov Ə.C.

Ünvan: Bakı şəhəri Yeni Suraxanı qəs., Dəmir yolu stansiyasının yanı



## "Çalışacağıq ki, meydanda səhvə yol verməyək"

Çətin oyuna hazırlaşırıq. Həm rəqib, həm də bizim üçün vacib görüş olacaq. Bu, UEFA Çempionlar Liqasının qrup mərhələsi çərçivəsində Bakıda sonuncu oyunumuzdur. Rəqibin gücünü bilirik. Çalışacağıq ki, meydanda səhvə yol verməyək. AZƏRTAC xəbər verir ki, bu sözləri noyabrın 21-də "Qarabağ" futbol klubunun baş məşqçisi Qurban Qurbanov UEFA Çempionlar Liqasının qrup mərhələsinin V turu çərçivəsində Bakıda "Çelsi" ilə keçiriləcək oyundan əvvəl təşkil olunan mətbuat konfransında deyib.

Q.Qurbanov bildirib: "Zədəli və cəzalı oyunçular haqqında düşünmürük. Pedro Enrikenin mövqeyində kimin oynayacağı sabah bilinəcək. Yeni transfer haqqında hələ ki, düşünmürəm. Futbolçularımızın oyunu məni qane edir. Mən futbolçuların yaşından çox, onların meydandakı performansına baxıram və bütün oyunçularıma güvənirəm. Hər bir futbolçu mənim üçün önəmlidir".

## Azərbaycan birinci divizionunda vurulan qol Portuqaliya mətbuatında




Futbol üzrə Azərbaycan I divizionunun doqquzuncu turunda "Sabah" və "Mil-Muğan" komandalarının oyununda vurulan qol Portuqaliya mətbuatının diqqətini cəlb edib. AZƏRTAC xəbər verir ki, Portuqaliyanın nüfuzlu www.record.pt idman portalında "Azərbaycan çempionatının ikinci liqasında vurulmuş yaxşı qolu da qeyd edək" başlığı altında video yerləşdirilib. Azərbaycan Peşəkar Futbol Liqasının hazırladığı videodan istifadə edən portalın şərhində İmişlinin "Mil-Muğan" komandasının "Sabah" kollektivini 4:0 hesabı ilə məğlub etdiyini oyunda Comərd Baxşəliyevin matçın 88-ci dəqiqəsində vurduğu baxımlı qol təqdim olunur.

## "Futbolu buraxmaq qorxum yoxdur"



"Mövsümün sonunda "Yuventus"la UEFA Çempionlar Liqasının baş mükafatını əldə etməyincə, çətin ki, karyeramı bitirim.AZƏRTAC İtaliyanın ANSA agentliyinə istinadla xəbər verir ki, bu sözləri Çempionlar Liqasında Barselona ilə oyun ərəfəsində "Yuventus"un qapıçısı Canluici Buffon söyləyib. İtaliyanın Dünya Çempionatının təsnifat mərhələsini keçə bilməməsindən təəssüfləndiyini bildirən qapıçı deyib: "Mən rahatam, təqaüdə çıxmaqdan qorxmuram. Mənim üçün həyat maraqlıdır və futbolu buraxmaq qorxum yoxdur". Canluici Buffon baş məşqçi və ya hər hansı icraçı vəzifə tutmaq barəsində düşünmür. Mükəmməl karyerası olduğunu deyən idmançı müxtəlif futbolçuların - Zenqa, Takkoni, Peruççi, Toldo, Palyuka, Markedcani kimi qapıçıların məktəbinin davamçısı olduğunu bildirib.

## Antuan Qrizmann: "Atletiko"nu tərk etməyi planlaşdırmıram"



"Atletiko"nun futbolçusu Antuan Qrizmann Madrid təmsilçisini qışda tərk edəcəyi ilə bağlı yayılan iddialara münasibət bildirib. SİA-nın məlumatına görə, fransalı hücumçu klubdan ayrılmayacağını deyib: "Qışda "Atletiko"nu tərk etməyi planlaşdırmıram. Bundan başqa, qışdan Dieqo Kosta və Vitolo komanda üçün oynayacaqlar. Biz mümkün qədər "Atletiko"nun daha yüksək yerlərə çatmasına nail olmalıyıq. Klub prezidenti ilə başqa kluba keçidimlə bağlı heç bir müzakirə aparmamışam". Qeyd edək ki, "Real"ın A.Qrizmannın transferi üçün "Atletiko" ilə ilkin razılığa gəldiyi iddia olunurdu.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**